ABB
Azərbaycan Beynəlxalq Bankı

**"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

Hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 322 000 000 (üç yüz iyirmi iki milyon) ədəd, emissiyanın məcmu nominal dəyəri 86 940 000 (səksən altı milyon doqquz yüz qırx min) manat adi, adlı, sənədsiz səhmlərin

# EMİSSİYA PROSPEKTİ

**Bakı – 2024**

Bakı 2024-cü il

## MÜNDƏRİCAT


**BƏYANAT** .... 4

**XÜLASƏ**

1. XƏBƏRDARLIQ .... 5

2. EMİTENT BARƏDƏ MƏLUMAT .... 5

3. SƏHMLƏR HAQQINDA MƏLUMAT .... 11

4. RİSK FAKTORLARI .... 13

5. TƏKLİF .... 14

**I HİSSƏ - SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR**

6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT .... 20

7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI .... 20

8. EMİTENT BARƏDƏ MƏLUMAT .... 21

9. EMİTENTİN BİZNESİNİN İCMALI .... 23

10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK .... 25

11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ .... 26

12. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI .... 27

13. EMİTENTİN KAPİTAL RESURSLARI .... 29

14. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR .... 31

15. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT .... 32

16. GƏLİR PROQNOZU .... 33

17. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI .... 33

18. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI .... 37

19. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI .... 37

20. EMİTENTİN İŞÇİ HEYƏTİ .... 42

21. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR .... 42

22. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR .... 43

23. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI .... 46

24. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR ..... 57

## II HİSSƏ - SƏHMLƏR BARƏDƏ MƏLUMAT

25. ƏSAS MƏLUMAT ..... 65
26. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT ..... 66
27. TƏKLİFİN ŞƏRTLƏRİ ..... 68
28. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ ..... 74
29. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT ..... 76
30. EMİSSİYA XƏRCİ ..... 77
31. PAYIN AZALMASI ..... 77

## ƏLAVƏLƏR: AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI

## BƏYANAT

Biz aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29.01.2016-cı il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2. "ABB" ASC-nin hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan ümumi həcmi **86 940 000 (səksən altı milyon doqquz yüz qırx min) manat 322 000 000 (üç yüz iyirmi iki milyon)** ədəd adi, adlı, sənədsiz əlavə səhmlərin Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyərinin sədri :

İbrahimov Abbas Məmmədəli oğlu ______________________ 29.05.2024

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü / Baş Maliyyə İnzibatçısı:

Əliyev Nəbi Etibar oğlu ______________________ 29.05.2024

"AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
OPEN JOINT STOCK COMPANY "THE INTERNATIONAL BANK OF AZERBAIJAN"
ABB

## XÜLASƏ

### 1. XƏBƏRDARLIQ

1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

1.2. Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxumasından sonra həyata keçirilməlidir.

1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

### 2. EMİTENT BARƏDƏ MƏLUMAT

2.1. **Emitentin tam adı:** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "ABB" ASC və ya Emitent və ya Cəmiyyət).

2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:**

2.2.1. **Emitentin olduğu yer:** Bakı ş., Nəsimi ray., Nizami küç., ev. 67, AZ1005

2.2.2. **Emitentin təşkilati-hüquqi forması:** Açıq Səhmdar Cəmiyyəti

2.2.3. **Emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası

2.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi**:

Emitent Azərbaycanla yanaşı Rusiya Federasiyası bazarında öz törəmə bankı vasitəsi ilə fəaliyyət göstərir. Emitentin hər iki bazarı üzrə son 3 ildə əldə etdiyi gəlirləri barədə məlumat aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Gəlirlər (faiz xərcləri çıxılmaqla), mln AZN | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Azərbaycan bazarı | 509,013 | 694,508 | 860,790 |
| Rusiya bazarı | 23,027 | 38,474 | 47,616 |

Emitent və onun törəmə bankı müvafiq olaraq Azərbaycan və Rusiya bazarında bank xidmətləri sahəsində kəskin rəqabət mühitində fəaliyyət göstərir. Emitent Azərbaycan bazarında bank aktivlərinin həcminə görə 2023-cü ilin sonuna birinci yerdə, onun

Rusiya Federasiyasında törəmə bankı isə Rusiya bankları arasında ilk 100-də yer almışdır.

2.4. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

**Rəqəmsallaşmanın tətbiqi.**

Emitentin 2023 – 2025-ci illər üzrə strateji məqsədlərindən biri olaraq müəyyən etdiyi Data Əsaslı Rəqəmsal Təcrübə bankın həm riteyl, həm də korporativ bankçılıq üzrə rəqəmsallaşmanın sürətli tətbiqinə xüsusi önəm verdiyinin göstəricisidir. Rəqəmsal xidmət kanallarının genişləndirilməsi, mobil bank və internet bankçılıq üzrə qabaqcıl texnologiyaların və yeniliklərin tətbiqi həm müştəri məmnuniyyətinin və xidmət keyfiyyətinin, həm də əməliyyat effektivliyinin artırılmasına səbəb olacaqdır. Texnoloji transformasiya yalnız filial prosesləri və məhsulları ilə məhdudlaşmadığından, Data mining alətlərinin geniş tətbiqi real-zamanda məlumat təhlilinə şərait yaradır və strateji və əməliyyat qərarlarının qəbul edilməsində məlumatların önəmini artırır.

**İstehlakçı inamının qorunması və məlumatların təhlükəsizliyi.**

Rəqəmsallaşmanın sürətlənməsi ilə istehlakçı və bank arasında onlayn informasiya mübadiləsinin kəskin artması müştərinin bankın IT sisteminə və məlumat təhlükəsizliyinə olan tələblərini daha da artırır. Bu tendensiyanın fonunda Bank IT sistemlərinin optimallaşdırılması, IT və kiber təhlükəsizlik, rəqəmsal dələduzluğun önlənməsi üzrə texnologiyaların tətbiqi, əməliyyat zamanı meydana gələn uğursuz cəhdlərin və gecikmə müddətinin minimallaşdırılmasını əsas amillərdən biri kimi qiymətləndirir. Bankın müştərilər ilə müxtəlif platformalar üzərindən kommunikasiyasının gücləndirilməsi və korporativ sosial məsuliyyət faəliyyətlərinin aktiv icrası istehlakçı inamının qorunması və gücləndirilməsinə yönəlik fəaliyyəti kimi dəyərləndirilir.

**İqtisadi faktorlar.**

Post-pandemiya dövründə ölkədə iqtisadi fəallığın artması, dövlətin iqtisadiyyatın ağardılması, nağdsız dövriyyənin artırılması, sosial müavinətlərin artırılması üzrə tədbirləri, işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidənqurma işlərinin sürətli icrası iqtisadiyyata əlavə investisiyaların cəlbini artırlmaqla, ümumilikdə bazar subyektlərinin iqtisadi fəallığının artmasına müsbət təsir edir. Maliyyə Nazirliyinin məlumatlarına əsasən, cari ilin ilk iki ayında ölkədə 18,5 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 10.0 milyard manatlıq ümumi daxili məhsul

(ÜDM) istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 5,0 faiz, o cümlədən qeyri neft sektoru üzrə ÜDM 10.1 faiz artıb. Bu isə biznes kreditləşməsində öz müsbət təsirini göstərməkdədir (Bankın SME və Mikro biznes portfelində müsbət inkişaf tendensiyası müşahidə edilməkdədir). AR Mərkəzi Bankının daraldıcı monetar siyasətinin nəticəsi olaraq İstehlak Qiymətləri İndeksi illik artım tempi azalaraq cari ilin yanvar-fevral ayları ərzində 1.3% təşkil etmişdir.

### Sosial Faktorlar

Pandemiya dövründə insanların gündəlik yaşayışında və davranışlarında olan dəyişikliklər xidmət sahələrində rəqəmsal aktivliyin artmasını şərtləndirən bir amil olmuşdur. “Y” və “Z” nəslinin onlayn əməliyyatlara üstünlük verməsi rəqəmsal transformasiyanı sürətləndirən başqa bir faktor olaraq qeyd edilə bilər. 2023-cü il ərzində ölkə daxilində ödəniş kartları ilə aparılmış əməliyyatların ümumi həcmi 2022-ci il ilə müqayisədə 56% artaraq 88.1 mlrd. manat, o cümlədən nağdsız ödənişlərin həcmi 2 dəfə artaraq 49 mlrd. manat olmuşdur. Ödəniş kartları ilə aparılmış ölkədaxili əməliyyatlarda nağdsız hesablaşmaların xüsusi çəkisi 2022-ci il ilə müqayisədə 12.4% bəndi yüksələrək 55.6%-ə bərabər olmuşdur. Emitent bankın müştəri bazasında gənc nəslin payı artması rəqəmsallaşma üzrə strateji hədəflərin uğurlu icrasını şərtləndirir. Əlavə olaraq müştərilərin maliyyə savadlılılğının və banklara olan güvəninin artırılması bankçılığın inkişafında önəmli şərt olaraq dəyərləndirilir.

## 2.5. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:

| Adı | Fəaliyyət göstərdiyi ölkə | Mülkiyyət payı |
|---|---|---|
| “Bank “ABB-Moskva” MMC | RusiyaFederasiyası | 100% |
| “Azərikard” MMC | Azərbaycan Respublikası | 100% |
| “IBA GEO” - SC | Gürcüstan Respublikası | 100% |
| “Beynəlxalq Lizinq Şirkəti” MMC | Azərbaycan Respublikası | 100% |
| “Azərbaycan Kredit Bürosu” MMC | Azərbaycan Respublikası | 12.5% |
| “Bakı Fond Birjası” QSC | Azərbaycan Respublikası | 4.76% |
| “ABB-İnvest İnvestisiya Şirkəti” QSC | Azərbaycan Respublikası | 100% |

Emitent aşağıdakı qurumların üzvüdür:

- S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti)
- Azərbaycan Banklar Assosiyasiyası (ABA);
- AR Ticarət-Sənaye Palatası;
- Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM);
- Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi;

2.6. **Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan səhmdarların payı aşağıdakı kimidir:

| Səhmdar | Adi səhmlərin sayı | % |
|---|---|---|
| Azərbaycan Respublikası | 4,374,521,775 | 96.3678 % |

2.7. **Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat;**

Səhmdarlar Bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər. Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar Ümumi Yığıncaqda təmsil edilən səhmdarların 75 (yetmiş beş) faiz səs çoxluğu ilə qəbul olunur.Banka aidiyyəti olan şəxslə dəyəri Bankın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar Bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan Səhmdarların Ümumi Yığıncağının sadə səs çoxluğu ilə qəbul edilir.
Səhmdarların Ümumi Yığıncağında bütün digər qərarlar Ümumi Yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

2.8. **Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti:**

Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin 22 sentyabr 2021-ci il tarixli, 1448 nömrəli Fərmanına əsasən “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmişdir. Bankın nizamnamə kapitalında dövlətə məxsus səhmlərin imkan verdiyi dərəcədə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həll edilməsində dövlətin adından iştiraketmə hüququ həvalə edilmişdir:

- Azərbaycan Respublikasının Prezidentinə - Bankın satılması, yenidən təşkili və ləğvi ilə bağlı;
- Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə;
- Bankın Müşahidə Şurası üzvlərinin, o cümlədən onun rəhbərinin vəzifəyə seçilməsi və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
- Bankın icra orqanının rəhbərinin vəzifəyə seçilməsi, onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;
- müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri kredit təşkilatının aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;
- Bankın nizamnamə kapitalının artırılması və azaldılması barədə qərar qəbul edilməsi, səhmlərinin buraxılması müddətlərinin və şərtlərinin müəyyənləşdirilməsi, habelə mühüm iştirak payının əldə edilməsinə razılıq verilməsi;
- Bankın kənar auditorun təsdiqlədiyi və Audit Komitəsinin tövsiyə etdiyi illik maliyyə hesabatlarının təsdiq edilməsi, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul edilməsi;
- Bankın nizamnaməsinin təsdiq edilməsi və onun dəyişdirilməsi;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və fəaliyyətlərinə xitam verilməsi, başqa bankın satın alınması barədə qərarların qəbul edilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətinə aid edilmiş digər məsələlərin həll edilməsi.

Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən Emitentin səhmdarlarından və ya kənar şəxslərdən 3 (üç) il müddətinə 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır:**

<u>Əsas maliyyə göstəriciləri</u>

*(min AZN)*

| Əsas maliyyə göstəriciləri | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| İl üzrə xalis mənfəət | 380,888 | 288,782 | 139,592 |
| Cəmi aktivlər | 13,929,329 | 14,177,619 | 11,753,259 |
| Cəmi öhdəliklər | 11,882,438 | 12,357,256 | 10,050,568 |
| Cəmi kapital | 2,046,891 | 1,820,363 | 1,702,691 |
| Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 2,816,799 | 5,375,211 | 6,837,554 |

31 Dekabr 2023-cü il tarixinə ümumi aktivlərin 35%-i müştərilərə verilmiş kreditlər, 20%-i pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, 15%-i investisiya qiymətli kağızları, 13%-i mərkəzi banklarda məcburi pul qalıqları, 11%-i banklardan və digər maliyyə təşkilatlarından alınacaq məbləğlər, 6%-i isə digər aktivlər təşkil edir.

31 Dekabr 2023-cü il tarixinə ümumi öhdəliklərin 86%-i müştəri hesabları, 5%-i banklar və digər maliyyə təşkilatları qarşısında öhdəliklər, 4%-i buraxılmış borc qiymətli kağızları, 5%-i isə digər öhdəliklər təşkil edir.

2.10. **Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd:** Mövcud deyil.

2.11. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:**
Mövcud deyil.

2.12. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**
Ernst & Young Azərbaycan tərəfindən "ABB" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditi aparılmışdır.
Kənar audit şirkətinin rəyinə görə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini

və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

2.13. **Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat.**
Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent qanunvericilikdə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etməklə hesablar üzrə və əmanətlərə vəsaitlərin cəlb edilməsi, pul və kapital bazarında kreditlərin cəlb edilməsi, habelə qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmə imkanına malikdir.

## 3. SƏHMLƏR HAQQINDA MƏLUMAT

3.1. **Səhmlərin növü və qeydiyyat nömrəsi:** adi adlı sənədsiz səs hüququ verən səhm (bundan sonra: səhm və ya səhmlər). Qeydiyyat nömrəsi AZ1004004581

3.2. **Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:**
Emitentin emissiya hesabında səhm mövcud deyil.

**Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:**

| Törəmə müəssə | Emitentə məxsus səhm sayı | Nominal dəyəri (AZN) |
|---|---|---|
| “Azərikard” MMC | 5,000 | 500,000 (100) |
| “ABB-İnvest İnvestisiya Şirkəti” QSC | 300 | 3,000,000 (10,000) |
| “Bank “ABB-Moskva” MMC | 100% kapitalı ABB-yə məxsus | |
| “IBA GEO” - SC | 100% kapitalı ABB-yə məxsus | |
| “Beynəlxalq Lizinq Şirkəti” MMC | 3,500 | 1,260,000 (360) |

3.3. **Səhmlərlə təsbit olunan hüquqlar:**
- Bankın idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Bankın fəaliyyətinə dair məlumatlar almaq, ildə 1 (bir) dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada Bankın Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;

- Bankın Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna olmaqla, Bankın Səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək;
- Bankın xalis mənfəətindən dividend almaq;
- Bankın fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendləri, habelə Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- Bankın səhmlərinin satışı prosesində iştirak etmək;
- Bankın Nizamnaməsi, ona edilən əlavə və dəyişikliklərlə tanış olmaq, Bankın Nizamnaməsinin surətini almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

3.4. **Səhmlərlə təsbit olunan məhdudiyyətlər:**

Mövcud deyil.

3.5. **Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə (abunə yazılışı keçirilməklə) Bakı Fond Birjasında, səhmlərinin dəyərinin yalnız pulla ödənilməsi və alqı-satqı əqdlərinin bağlanılması yolu ilə həyata keçiriləcəkdir. Bununla bağlı müraciət Mərkəzi Bank tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. Fond birjasında səhmlərin kütləvi ticarəti Emitentin anderrayteri “ABB-İnvest İnvestisiya Şirkəti” QSC-nin vasitəçiliyi ilə, fond birjasının daxili qaydalarına əsasən səhmlərin kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

Bakı Fond Birjası 27 avqust 1997-ci il Bakı Fond Birjası Səhmdar Cəmiyyətinin yaradılması tarixidir. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş “fond birjası fəaliyyəti”ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Birjanın yaradılması anından etibarən Bakı Fond Birjası Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Əlaqə nömrəsi: (+994 12) 498 98 20

Elektron poçt ünvanı: info@bse.az
"ABB" ASC-nin səhmləri Bakı Fond Birjası QSC-nin listinq şərtlərinə uyğun olaraq Premium Bazar Seqmentindədir. Bu emissiya prospekti ilə müəyyən edilən səhm buraxılışı müvafiq qaydada dövlət qeydiyyatına alındıqdan sonra, "ABB" ASC-nin səhmləri Fond Birjası QSC-də eyni seqmentdə qalacaq və ticarəti aparılacaqdır. Bu seqmentdə emitentlərdən qabaqcıl təşkilati, maliyyə, məlumatların açıqlanması və idarəetmə standartlarının tətbiq edilməsi, mənfəətlilik, səhmlər üzrə sərbəst bazarda tədavül həcminin təmin edilməsi tələb edilir. Emitentin nizamnamə kapitalının ümumi həcmi ən azı 2 500 000 manat olmalıdır. Premium bazar seqmentində Dövlət qiymətli kağızları, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların, o cümlədən, qabaqcıl təşkilati, maliyyə, məlumatların açıqlanması və idarəetmə standartlarının tətbiq edildiyi yüksək əməliyyat və maliyyə göstəriciləri nümayiş etdirən Emitentlərin qiymətli kağızları ticarət olunur.
Emitentin səhmlərinin premium bazarı seqmentində ticarət edilməsi üçün emitent Bakı Fond Birjası QSC-nin müvafiq daxili qaydalarının (https://www.bfb.az/az/view-file/baki-fond-birjasinda-qiymetli-kagizlarin-listinqe-dax.pdf) tələblərinə cavab verməlidir.

3.6. **Emitentin dividend siyasətinin təsviri:**
Emitentin mənfəətinin bölüşdürülməsi nəticəsində dividendlərin ödənilməsi həyata keçirilir. Dividend ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən həyata keçirilir.

## 4. RİSK FAKTORLARI

4.1. **Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** "ABB" ASC-nin səhmlərinə xas olan risklər və bu riskləri qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:

4.1.1. Ümumi bazar riski – "ABB" ASC və digər şirkətlərin buraxdığı səhmlərin bazar qiymətinin ölkə və dünya iqtisadiyyatında baş verən dəyişikliklər səbəbindən kollektiv şəkildə enməsi riskidir. İnflyasiyanın və faiz dərəcələrinin artması səhmlərin bazar qiymətinə mənfi təsir edə bilər.

4.1.2. Xüsusi bazar riski – "ABB" ASC-nin fəaliyyət göstərdiyi sahələrdə müşahidə edilən iqtisadi vəziyyət və Emitentin daxilində baş verən korporativ hadisələr təklif edilən səhmlərin bazar qiymətinə təsir edə bilər.

4.2. **Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları:**

Bankların üzləşdiyi əsas risklər kredit, əməliyyat, bazar və likvidlik riskləridir. Risklərin idarə edilməsinə məsuliyyətli yanaşma bankların kreditlərdə və investisiyalarda daha az itkilərə məruz qalaraq qazancını artırmasına kömək edə bilər. Risklərin azaldılmasının yollarına aktivlərin diversifikasiyası, kreditləşdirmə zamanı məsuliyyətli təcrübələrin tətbiqi və işləmə sistemlərinin təkmilləşdirilməsi daxildir.

## 5. TƏKLİF

5.1. **Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:** "ABB" ASC tərəfindən səhmlərin emissiyası və yerləşdirilməsi üzrə xərclər və cəlb olunacaq vəsaitlərin ehtimal olunan xalis məbləği barədə məlumat:

| Xərcin təyinatı | Məbləğ |
|---|---|
| Emissiya prospektinin dövlət qeydiyyatına alınması üçün rüsum: | 1 200 AZN |
| Anderraytera ödəniləcək xidmət haqqı: | 0.5% (yerləşdiriləcək səhmlərin bazar dəyərindən ) |
| Səhmlərin Bakı Fond Birjası QSC-nin yerləşdirilməsi üçün satıcı tərəf (emitent) tərəfindən ödəniləcək xidmət haqqı: | 1 000 AZN |
| Emissiya edilən bütün səhmlərin ilkin satış (təklif) təklif qiyməti ilə yerləşdirilməsi şərti ilə cəlb ediləcək vəsaitin məbləği: | 86 940 000 AZN |
| Yeləşdirmə nəticəsində cəlb olunacaq vəsaitlərin ehtimal olunan xalis məbləği: | 86 503 100 AZN |

Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0,02%-i, (minimum 50, maksimum 5000) hər bir xidmət üzrə ayrılıqda ödənilir. Buraxılışdan öncəki vəziyyətə əsasən qeyd olunan rüsumlar maksimal həddə çatdığından, yeni buraxılışda bu xidmətlərlə bağlı əlavə xərc yaranmayacaq.

5.2. **Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği:** Təklifin səbəbləri səhmlərin emissiyasından əldə olunan vəsaitin "ABB" ASC-nin cəmiyyətin əsas fəaliyyəti olan kredit portfelinin böyüdülməsinə, və digər fəaliyyət istiqamətlərinə yönəldilməsidir. Səhm emissiyasından əldə olunacaq xalis gəlir səhmlərin yerləşdirmə qiymətindən asılıdır. Bütün səhmlər ilkin satış qiyməti ilə yerləşdirildiyi halda, emissiya nəticəsində cəlb olunacaq xalis məbləğin 86 503 100 manat təşkil edəcəyi gözlənilir.

5.3. **Təklifin şərtlərinin təsviri:** Emissiya edilən səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Səhmlərin buraxılışı və yerləşdirilməsi aşağıdakı mərhələlərdən ibarət olacaqdır:

5.3.1. **Səhmlərə abunə yazılışı mərhələsi.** Səhmlərə abunə yazılışı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən səhmlərin buraxılışı dövlət qeydiyyatına sonra abunə yazılışının başlama və bitmə tarixləri elanda göstərilir və abunə yazılışının müddəti 3 (üç) aydan yuxarı olmamaqla müəyyən edilir. Abunə yazılışı başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə səhmləri əldə etmək istəyən investor ABB-İnvest İnvestisiya Şirkəti QSC-yə müraciət edə bilər. Abunə yazılışı dövründə də səhmdarlar tərəfindən verilmiş sifarişlər üzrə onların üstünlük hüquqları Emitentin nizamnamə kapitalında malik olduqları paya mütənasib həcmdə təmin ediləcəkdir.

5.3.2. **Səhmlərin yerləşdirilməsi mərhələsi.** Abunə yazılışı müddəti bitdiyi tarixdən 2 (iki) iş günü ərzində səhmlərin Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsinin başlanma və başa çatma tarixləri barədə məlumat ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən tərəfindən öz veb saytında və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Yerləşdirmə müddətinin ilk 2 (iki) iş günü ərzində səhmlər üstünlük hüququna malik investorlar arasında yerləşdiriləcəkdir, ilk 2 (iki) iş günü ərzində yerləşdirilməyən səhmlər isə digər investorlar arasında növbəti iş günü ərzində yerləşdiriləcəkdir. Üstünlük hüququ səhmdarın Cəmiyyətin nizamnamə kapitalında olan payı ilə məhdudlaşdırılır. Səhmdarların bu paydan artıq sayda səhm almaq sifarişləri yalnız digər sifarişlərdən qiymət üstünlüyü olduqda icra ediləcəkdir. Eyni qiymətlə verilmiş bu cür sifarişlər səhmlərin sifarişlər arasında həcmə görə mütənasib şəkildə bölüşdürülməsi yolu ilə təmin ediləcəkdir.

Səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Səhmlərə abunə yazılışının məbləği üstünlük hüququ ilə alınan səhmlər istisna olmaqla hər bir investor üzrə maksimum 75 000 (yetmiş beş min) ədəd, minimum isə 100 (yüz) ədəd səhm miqdarında müəyyən edilir. Qeyd olunan məhdudiyyətlər nəzərə alınmaqla bir investor tərəfindən bir neçə sifariş təqdim edilə bilər.

5.4. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

- **Bakı Fond Birjası" QSC**. Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC səhm və digər növ qiymətli kağızların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti

təşkil edir. “Bakı Fond Birjası” QSC-nin “ABB” ASC və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir və bunun qarşılığında“Bakı Fond Birjası” QSC-ı öz tarif cədvəlinə əsasən xidmət haqqı tutur.

- **Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. Emissiyası prosesində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi  qiyməti kağızların saxlanması və uçotunun aparılması, mülkiyyətçilərin reyestrinin aparılması, ödəniş agenti qismində qiyməti kağızların mülkiyyətçilərinə ödənişlərin həyata keçirilməsi və digər aidiyyəti xidmətləri göstərir.

  “ABB” ASC-nin yeni buraxacaq səhmləri üzrə müvafiq xidmətlər Milli Depozit Mərkəzi tərəfindən həyata keçiriləcək. Bu xidmətlərin qarşılığında Milli Depozit Mərkəzi öz tarif cədvəlinə əsasən xidmət haqqı tutur.

- **“ABB-İnvest İnvestisiya Şirkəti” QSC** (anderrayter) müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. Bu lisenziya əsasında “ABB-İnvest İnvestisiya Şirkəti” QSC-i emitent və investorlara bir sıra əsas və yardımçı investiya xidmətləri göstərir. “ABB” ASC-nin yeni buraxılacaq səhmlərinin anderraytinqi və yerləşdirilməsi “ABB-İnvest İnvestisiya Şirkəti” QSC tərəfindən həyata keçiriləcək və bu xidmət qarşılığında “ABB” ASC-dən xidmət haqqı tutulacaqdır. Səhmlərin buraxılma prosesində “ABB-İnvest İnvestisiya Şirkəti” QSC-nin marağı kommersiya xarakterlidir.

5.5. **Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti:**
Məlumat mövcud deyil

5.6. **Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə):** Yeni səhm təklifi nəticəsində 322,000,000 (üç yüz iyirmi iki milyon)  ədəd səhmin tam yerləşdirilməsi baş tutduğu halda ehtimal olunan dəyişiklik aşağıdaki kimi olacaq:

| Səhmdarlar | Mövcud səhmlərin miqdarı və faiz nisbəti | | Üstünlük hüququ istifadə olunmadığı halda səhmlərin miqdarı və faiz nisbəti | |
|---|---|---|---|---|
| Fiziki şəxslər | 141,858,951 | 3.13% | 141,858,951 | 2.92% |
| Hüquqi şəxslər | 23,055,641 | 0.50% | 23,055,641 | 0.47% |
| Dövlət | 4,374,521,775 | 96.37% | 4,374,521,775 | 89.99% |

| | | | | |
|---|---|---|---|---|
| Yeni səhmdarlar | - | - | 322,000,000 | 6.62% |
| Cəmi | 4,539,436,367 | 100.00% | 4,861,436,367 | 100.00% |

5.7. **Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Səhm alıcısının ödəməli olduğu xərclər aşağıdakılardan ibarətdir:

5.7.1. Səhm alışı üçün anderraytera verilmiş sifarişin icrası üçün anderrayterin və Bakı Fond Birjası QSC-nin tətbiq etdiyi xidmət haqları. Bu xidmət haqqı sifarişin icra olunmuş həcmindən asılı olaraq anderrayter və Bakı Fond Birjası QSC tərəfindən müəyyən edilir. Anderrayterin tətbiq etdiyi xidmət haqqı investorla bağlanmış müqavilədə, Bakı Fond Birjası QSC-nin tətbiq etdiyi xidmət haqqı barədə məlumat isə onun internet səhifəsində (https://www.bfb.az/az/bfb-ticaret-tariffleri-ve-uzvluk-haqlari) dərc edilmişdir.

| | | |
|---|---|---|
| **Fiziki şəxs tərəfindən odənilən komissiya** | Hesab açılışı | 20 AZN |
| | MDM | - |
| | BFB | 0,05% (min. 0,5 və maks. 500 manat) |
| | İnvestisiya Şirkəti | 0.05% (min 20 manat) |
| | Çıxarış 1 q/k üzrə | 5 AZN |
| **Hüquqi şəxs tərəfindən odənilən komissiya** | Hesab açılışı | 20 AZN |
| | MDM | - |
| | BFB | 0,05% (min. 0,5 və maks. 500 manat) |
| | İnvestisiya Şirkəti | 0.01% (min 50 manat) |
| | Çıxarış 1 q/k üzrə | 5 AZN |

Səhm alıcısına xidmət edən investisiya şirkətinin bank hesabına səhm alışı üçün pul vəsaitlərinin köçürülməsi üzrə banka ödənilən xidmət haqqı. Bu xidmət haqqı müvafiq bank tərəfindən müəyyən edilir.
Yeni depo hesabının açılışı ilə bağlı Milli Depozit Mərkəzinin tətbiq etdiyi xidmət haqqı. Bu xidmət haqqı barədə məlumat onun internet səhifəsində (https://mdm.gov.az/uploads/files/2022/04/mdm-xidm%C9%99t-haqlari1.pdf ) dərc edilmişdir.
Səhm alıcısının alış etdiyi vaxtda vergi ödəmək öhdəliyi yaranmır. Qanunvericiliklə müəyyən edilmiş halda və qaydada Emitent tərəfindən dividenddən ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər üzrə fiziki şəxslərə ödənilən dividend gəlir vergisindən azaddır.

Yalnız fiziki şəxslərin anderrayter (ABB-İnvest) vasitəsilə səhm alışı zamanı ödəməli olduğu xərclər (Bakı Fond Birjasının komissiyası, Anderrayterin komissiyası, Milli Depozit Mərkəzidə hesab açılışı xərci) Emitent (ABB ASC) tərəfindən qarşılanacaq.

5.8. **Səhmlərin yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi):**

"ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti anderayter təyin edilmişdir.

Hüquqi ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67

Faktiki ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə)

Telefon: (994 12) 493 00 91 (3092,3081)

E-mail: office@abbinvest.az,

VÖEN: 1405161661

**Lisenziyası:** Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 18.09.2020-ci il tarixində verilmiş İŞ-05 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya.

5.9. **Səhmlərin təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri:**

Səhmlərə abunə yazılışı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən səhmlərin buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra abunə yazılışının başlama və bitmə tarixləri elanda göstərilir və abunə yazılışının müddəti 3 (üç) aydan yuxarı olmamaqla müəyyən edilir. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Abunə yazılışı dövründə səhmləri əldə etmək istəyən investor ABB-İnvest İnvestisiya Şirkəti QSC-yə müraciət edə bilər. Abunə yazılışı dövründə səhmdarlar tərəfindən verilmiş sifarişlər üzrə onların üstünlük hüquqları Emitentin nizamnamə kapitalında malik olduqları paya mütənasib həcmdə təmin ediləcəkdir.

Abunə yazılışı müddəti bitdiyi tarixdən 2 (iki) iş günü ərzində səhmlərin Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsinin başlanma və başa çatma tarixləri barədə məlumat ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır. Yerləşdirmə müddətinin ilk 2 (iki) iş günü ərzində səhmlər üstünlük hüququna malik investorlar arasında yerləşdiriləcəkdir, ilk 2 (iki) iş günü ərzində yerləşdirilməyən səhmlər isə digər investorlar arasında növbəti iş günü ərzində yerləşdiriləcəkdir. Üstünlük hüququ səhmdarın Cəmiyyətin nizamnamə kapitalında olan payı ilə məhdudlaşdırılır. Səhmdarların bu paydan artıq sayda səhm almaq sifarişləri yalnız digər sifarişlərdən qiymət üstünlüyü olduqda icra ediləcəkdir. Eyni qiymətlə verilmiş bu cür sifarişlər səhmlərin sifarişlər arasında həcmə görə mütənasib şəkildə bölüşdürülməsi yolu ilə təmin ediləcəkdir.

Səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Səhmlərə abunə yazılışının məbləği üstünlük hüququ ilə alınan səhmlər istisna olmaqla hər bir investor üzrə maksimum 75 000 (yetmiş beş min) ədəd, minimum isə 100 (yüz) ədəd səhm miqdarında müəyyən edilir. Qeyd olunan məhdudiyyətlər nəzərə alınmaqla bir investor tərəfindən bir neçə sifariş təqdim edilə bilər.

5.10. **Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd:**

Səhmlərin buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən etibarən bu emissiya prospekti buraxılışın anderrayteri ABB-İnvest İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında (https://www.abbinvest.az) ictimaiyyətin diqqətinə çatdırılacaq və sorğu əsasında elektron poçt (office@abbinvest.az) vasitəsilə sorğu edənlərə təqdim ediləcəkdir.

## I HİSSƏ

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

## 6. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

### 6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| 2021 | Ernst & Young Holdings (CIS) B.V | AZ1010, Bakı şəhəri, Neftçilər prospekti 153, “Port Baku” Cənub qülləsi 9-cu mərtəbə | Ernst & Young Global Limited |
| 2022 | Ernst & Young Holdings (CIS) B.V | AZ1010, Bakı şəhəri, Neftçilər prospekti 153, “Port Baku” Cənub qülləsi 9-cu mərtəbə | Ernst & Young Global Limited |
| 2023 | Ernst & Young Holdings (CIS) B.V | AZ1010, Bakı şəhəri, Neftçilər prospekti 153, “Port Baku” Cənub qülləsi 9-cu mərtəbə | Ernst & Young Global Limited |

### 1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:

Son 3 il ərzində auditorun əvəzlənməsi və ya dəyişdirilməsi olmayıb. 2021-ci ildən etibarən mövcud auditor şirkətidir.

## 7. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

### 7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.

| *Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir* | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|
| Faiz gəlirləri | 441,975 | 595,769 | 787,709 |
| Faiz xərcləri | (116,231) | (111,105) | (151,875) |
| Xalis faiz gəliri | 325,744 | 484,664 | 635,834 |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | 8,238 | (36,192) | (7,848) |
| Qeyri-faiz gəliri | 152,799 | 225,318 | 247,139 |
| Qeyri-faiz xərcləri | (289,513) | (261,537) | (314,320) |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəət | 183,074 | 367,666 | 484,162 |
| Mənfəət vergisi xərci | (43,482) | (78,884) | (103,274) |
| İl üzrə mənfəət | 139,592 | 288,782 | 380,888 |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | (6,794) | (50,985) | 2,240 |
| **İl üzrə cəmi Ümumi gəlir** | **132,798** | **237,797** | **383,128** |
| **Cəmi aktivlər** | **11,753,259** | **14,177,619** | **13,929,329** |
| Cəmi öhdəliklər | 10,050,568 | 12,357,256 | 11,882,438 |
| Cəmi Kapital | 1,702,691 | 1,820,363 | 2,046,891 |
| **Cəmi öhdəliklər və Kapital** | **11,753,259** | **14,177,619** | **13,929,329** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **6,837,554** | **5,375,211** | **2,816,799** |

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

8.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:**
“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti

8.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri, Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:**

Emitent 30.12.1992-ci il tarixində Azərbaycan Respublikası Milli Bankı tərəfindən “Azərbaycan Respublikası Beynəlxalq Bankı” Səhmdar-Kommersiya Bankı adı ilə dövlət qeydiyyatına alınmışdır. 23.12.2005-ci il tarixində Emitentin adı dəyişdirilərək Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti kimi yenidən dövlət qeydiyyatına alınmışdır.
Dövlət qeydiyyat № (VÖEN) - 9900001881

8.3. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Qeydiyyat ünvanı: Nizami küç. 67, AZ1005 Bakı, Azərbaycan
Elektron poçt ünvanı: info@abb-bank.az
İnternet səhifəsi: https://abb-bank.az/
Əlaqə telefonları: (+994 12) 493 00 91

8.4. **Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə):**
*(min AZN)*

| | 2023 | 2022 | 2021 |
|---|---|---|---|
| **Kapitala investisiyalar** | | | |
| AzeriKart MMC | 500 | 500 | 500 |
| ABB-İnvest İnvestisiya Şirkəti QSC | 3,000 | 3,000 | 3,000 |
| Beynəlxalq Lizinq şirkəti | 1,260 | 1,260 | 1,260 |
| ABB-Moskva | 101,623 | 101,623 | 101,623 |
| ABB-Gürcüstan | 1 | 1 | 1 |
| **Ticarət üçün QK** | **1,034,348** | **2,537,423** | **888,468** |
| Dövlət istiqrazları | 787,073 | 2,131,504 | 628,778 |
| Korporativ istiqrazlar | 206,551 | 258,573 | 246,492 |
| AR Mərkəzi Bankının notları | - | 147,346 | 13,198 |
| Repo müqavilələri əsasında girov qoyulmuş dövlət istiqrazları | 40,724 | - | - |
| **Ödəniş müddətinədək saxlanılan QK** | **920,394** | **110,516** | **110,516** |

| | | | |
|---|---|---|---|
| Korporativ istiqrazlar | 442,298 | 110,516 | 110,516 |
| Dövlət istiqrazları | 382,110 | - | - |
| Azərbaycan Respublikası Mərkəzi Bankının buraxdığı notlar | 76,986 | - | - |
| Repo müqavilələri əsasında girov qoyulmuş dövlət istiqrazları | 19,000 | - | - |

8.5. **Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici):`**

*(min AZN)*

| Adı | Məbləği | Coğrafi bölüşdürülməsi | Maliyyələşdirmə üsulu | Növü |
|---|---|---|---|---|
| Korporativ istiqrazlar | 648,849 | Daxili | Daxili | İstiqraz |
| Mərkəzi bankın qiymətli kağızları | 76,986 | Daxili | Daxili | Not |
| Dövlət istiqrazları | 1,169,183 | Daxili | Daxili | İstiqraz |
| REPO müqavilələri əsasında girov qoyulmuş dövlət istiqrazları | 59,724 | Daxili | Daxili | İstiqraz |
| Korporativ səhmlər | 99,688 | ABŞ və Azərbaycan | Daxili | Səhm |

8.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri:** Mövcud deyil**.**

## 9. EMİTENTİN BİZNESİNİN İCMALI

9.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:**

Emitentin son üç maliyyə ili ərzində hər bir maliyyə ili üzrə əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Eyni zamanda, milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul

olur. Bundan əlavə, kiçik və orta sahibkarlığın inkişafına köməklik göstərilməsi, istehlak, korporativ kreditlərin verilməsi, plastik kartların istifadəsi sahəsində təşkilatlarda əmək haqqının verilməsinin kartlar vasitəsilə həyata keçirilməsi, nağdsız hesablaşmaların həyata keçirilməsi məqsədilə pos-terminalların, "cash-in"lərin quraşdırılması və s. xidmətlər göstərir.

Emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar sırasında manatın məzənnəsinin stabil olması, Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması kimi xarici faktorlar və emitentin kredit portfelinin artımı, emitent tərəfindən yaradılmış ehtiyatların azalması kimi daxili faktorlar göstərmək olar.

9.2. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

- **E2E debit kart sifarişi –** SİMA vasitəsi ilə fiziki sənədə ehtiyac olmadan sənədləri imzalyaraq debit kart sifariş etmək
- **Digi kart –** Tam funksional rəqəmsal kart. Müştərilər kart sifariş edərkən rəqəmsal vəya fiziki kart olmasını seçərək anında kartlarını istifadə edə bilərlər.
- **Metal kart –** Ölkənin İlk metal kart layihəsi. İmtiyazı və xüsusi imtiyazlı müştərilər üçün nəzərdə tutulmuş kartdır.
- **Tam Eco kart –** Təkrar emal məhsullarından hazırlanmış kart pəstahıdır. Hər sifariş edilmiş kart üçün 1 ağac əkilmişdir. Kart tamkart bazasında yaradıldığı üçün Tamkart üstünlüklərindən müştərilər yarana bilər. Region-da ilk bu növ kartdır.
- **Sea Breeze kart –** Sea Breeze-də olan mənzil sahiblər, onların ailə üzvləri üçün nəzərdə tutulmuş kartdır. Kart sahibləri məhsuldan asılı olaraq cashback, mil qaza bilərlər. Region-da ilk bu növ kart.
- **Google Pay –** müştərilər kartlarını Google Pay-ə əlavə edərək ödənişlərini kart olamdan Google pay vasitəsi ilə icra edə bilərlər.

9.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması:**

Bu barədə məlumat hazırkı emissiya prospektinin Xülasə hissəsinin 2.3-cü bəndində açıqlanır.

9.4. **Emitentin Biznes İcmalının 9.1-ci, 9.2-ci və 9.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:**

- Manatın məzənnəsinin stabil olması;
- Dövlət büdcəsinin kəsiri aşağı səviyyədə olması;
- Emitent tərəfindən yaradılmış ehtiyatların azalması;

- Emitentin kredit portfelinin artımı.
- Requlyatorun daraldıcı monetar siyasəti
- Banklara requlyator tərəfindən qoyulan tələblərin sərtləşməsi

9.5. **Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:**

Prosessinq xidmətləri, internet və rabitə resursları üzrə müqavilələr, habelə bir sıra müxbir hesab müqavilələri üzrə.

9.6. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:**

Mövcud deyil.

## 10. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

10.1. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

Emitent aşağıdakı qurumların üzvüdür:

- S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti)
- Azərbaycan Banklar Assosiyasiyasi (ABA);
- AR Ticarət-Sənaye Palatası;
- Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM);
- Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi;

10.2. **Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer:**

| Adı | Ünvan | Fəaliyyət göstərdiyi ölkə | Mülkiyyət payı |
|---|---|---|---|
| “Bank “ABB-Moskva” MMC | Rochdelskaya küç. 14, ev 1. Moskva, 123376. Rusiya | Rusiya Federasiyası | 100% |
| “Azərikard” MMC | AZ1014, Bülbül pr. 54, Bakı | Azərbaycan Respublikası | 100% |
| “IBA GEO” - SC | 1 Georgi Leonidze St, Tbilisi 0105 | Gürcüstan Respublikası | 100% |

| | | | |
|---|---|---|---|
| “Beynəlxalq Lizinq Şirkəti” MMC | Bakı ş., A.M.Şərifzadə küç. 217/73 | Azərbaycan Respublikası | 100% |
| “Azərbaycan Kredit Bürosu” MMC | Səməd Vurğun küç. 43, AZ 1014, Bakı | Azərbaycan Respublikası | 12.5% |
| “Bakı Fond Birjası” QSC | Həsən bəy Zərdabi 2A, Bakı, Yasamal, AZ1141 | Azərbaycan Respublikası | 4.76% |
| “ABB-İnvest İnvestisiya Şirkəti” QSC | Cəfər Cabbarlı küçəsi 609, Globus Center, 8-ci mərtəbə Bakı şəhəri | Azərbaycan Respublikası | 100% |

Hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 2.5-ci bəndində açıqlanır.

## 11. EMİTENTİN ƏSAS VƏSAİTLƏRİ

11.1. **Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:**

| № | Mövcud olan əsas vəsaitlər | Balans dəyəri min. AZN |
|---|---|---|
| **1** | Mebel, kompyuter və texnika | 94,362 |
| **2** | Kompüter və rabitə avadanlıqları | 120,097 |
| **3** | Ofis binaları | 158,503 |
| **4** | İcarəyə götürülmüş aktivlərin əsaslı təmiri | 10,360 |
| **5** | Qeyri-maddi aktivlər | 53,068 |
| | **Cəmi məbləği** | **436,390** |

11.2. **Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə (emitentin fəaliyyət istiqamətindən asılı olaraq əsas vəsaitlərin xarici amillərin təsiri altında baş verə biləcək dəyişiklik) bağlı olan amillərin təsviri:**

Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə bağlı olan amillər, yəni insan fəaliyyətindən asılı olmayan təbii hadisələr (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s.) və ya texnogen hadisələrin baş verməsindən Emitentin bir sıra əsas vəsaitləri sığortalanır.

## 12. EMİTENTİN MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİNİN İCMALI

12.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:**

### MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

*(min AZN)*

| Mənfəət və zərər maddələri | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| Effektiv faiz dərəcəsini istifadə etməklə hesablanmış faiz gəliri | 787,709 | 595,769 | 441,975 |
| Faiz xərci | (151,875) | (111,105) | (116,231) |
| **Xalis faiz gəliri (zərəri)** | **635,834** | **484,664** | **325,744** |
| Kredit zərəri geri qaytarılma | (7,848) | (36,192) | 8,238 |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərlərindən sonra xalis faiz gəliri** | **627,986** | **448,472** | **333,982** |
| Qeyri-faiz zərəri | (143,824) | (80,806) | (150,908) |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | **484,162** | **367,666** | **183,074** |
| Mənfəət vergisi xərci | (103,274) | (78,884) | (43,482) |
| **İl üzrə xalis mənfəət** | **380,888** | **288,782** | **139,592** |

12.2. **Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat:**

- 23.01.2017-ci il tarixli emissiyanın yekunları haqqında hesabata əsasən hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 2 222 222 223 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 600 000 000 manat həcmində artırılmışdır;
- 19.06.2015-ci il tarixli emissiyanın yekunları haqqında hesabata əsasən hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 189 240 505 ədəd adi adlı

sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 51 094 936 manat həcmində artırılmışdır;

- 21.10.2014-cü il tarixli emissiyanın yekunları haqqında hesabata əsasən hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 2 185 897 450 ədəd adi adlı sənədsiz səhmlərin buraxılışı nəticəsində emitentin nizamnamə kapitalı 590,192,311 manat həcmində artırılmışdır;
- 31 dekabr 2023-cü il tarixinə müştərilərə verilmiş kreditlər son üç maliyyə ili ərzində əhəmiyyətli dərəcədə artaraq 4,910,003 min AZN məbləğinə qədər (31 dekabr 2022-ci il: 3,401,058 min AZN, 31 dekabr 2021-ci il: 2,958,768 min AZN) çatmışdır. Müştərilərə verilmiş kreditlərin əsasını hüquqi şəxslərə verilmiş kreditlər və fiziki şəxslərə verilmiş kreditlər təşkil edir.
- 31 dekabr 2023-cü il tarixinə müştəri hesablarına on (31 dekabr 2022-ci il: on) ən iri müştəri üzrə cəmi müştəri portfelinin 44%-ni təşkil edən 4,520,753 min AZN (31 dekabr 2022-ci il: cəmi müştəri portfelinin 56%-ni təşkil edən 6,280,650 min AZN məbləğində, 31 dekabr 2021-ci il: cəmi müştəri hesabları portfelinin 56%-ni təşkil edən 4,911,413 min AZN) məbləğində qalıqlar daxil olmuşdur.
- 31 dekabr 2023-cü il tarixinə investisiya qiymətli kağızları 2,052,269 min AZN (31 dekabr 2022-ci il: 2,727,517 min AZN, 31 dekabr 2021-ci il: 1,081,036 min AZN) olmuşdur.
- 31 dekabr 2023-cü il tarixinə buraxılmış borc qiymətli kağızları 496,968 min AZN-ə qədər (31 dekabr 2022-ci il: 504,403 min AZN, 31 dekabr 2021-ci il: 728,264 min AZN) azalmışdır. 2023-cü ildə Qrup 12,145 min AZN (2022-ci il: 262,936 min AZN, 2021-ci il: 852,455 min AZN) nağd ödənişlə avrobondları geri almışdır ki, bunun nəticəsində 199 min AZN (2022-ci il: 11,085 min AZN, 2021-ci il: 71,517 min AZN) məbləğində zərər tanınmışdır

12.3. **Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:**

Ölkədəki ÜDM-in azalması tempinin səngiməsi və real iqtisadiyyatın canlanması müşahidə edilməkdədir. Azərbaycan manatının və eləcə də ticarət partnyorlarının məzənnədəki korreksiyalar nəticəsində ölkədə inflyasiya idxalı qiymətlərin artımına səbəb olmuşdur. Bununla belə, istehsal olunan mal və göstərilən xidmətlərin dünya bazarında rəqabətliliyi artmış, ölkənin ixrac potensialının artımı yönündə struktural islahatlar aparılmışdır. Bunlar Emitentin iqtisadiyyatda aracılığını artırmış və qeyri-faiz gəlirlərinə müsbət təsir etmişdir. Qeyd etmək lazımdır ki, qeyri-nağd ödənişlərin artması emitentin ucuz maliyyə vasitələrinə çıxışını asanlaşdırmış və beləliklə faiz marjasına müsbət təsir etmişdir. Bununla yanaşı, emitentin dyurasiya qəpinin müsbət zonada olması bazardakı faiz dərəcələrinin aşağı enməsinə emitentin əməliyyatlardan əldə etdiyi gəlirləri artırır.

12.4. **Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri:**

Qeyri-nağd ödənişlərin stimullaşdırılması fonunda emitentin qeyri-faiz gəlirləri artmışdır. Əlavə olaraq, ölkədə rəqəmsallaşma yönündə aparılan islahatlar və innovasiyalar emitentin rəqəmsal satışlarının əhatəliliyini artırmışdır. Bu öz növbəsində emitentin satışlarını artırmaqla yanaşı əməliyyat xərclərini də optimallaşdırmağa şərait yaradır.

12.5. **İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat:**

Ölkədə aparılan iqtisadi islahatlar ümumilikdə bankların fəaliyyətinə müsbət təsir göstərmişdir. Belə ki, son dövrlərdə qeyri-nağd ödənişlərin həcmindəki xüsusi artım və kölgə iqtisadiyyatının kiçilməsi tendensiyaları müşahidə edilməkdədir. Əlavə olaraq, ölkədə elektron hökümətin daha da təkmilləşdirilməsi emitent faiz və qeyri-faiz gəlirlərini artırmaqla yanaşı, riskləri daha düzgün ölçməsinə şərait yaradır.

## 13. EMİTENTİN KAPİTAL RESURSLARI

13.1. **Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli):**

### KAPİTAL HƏRƏKƏTİ HESABATI

*(min Azərbycan manatı)*

| | Səhm kapitalı | Məzənnə fərqi üzrə ehtiyat | Binalar və investisiya üzrə yenidənqiymətləndirmə ehtiyatı | İnvestisiya qiymətli kağızları üzrə realizasiya edilməmiş gəlir | Bölüşdürülməmiş mənfəət və digər ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **1,241,287** | **(38,545)** | **39,926** | **86,524** | **367,701** | **1,696,893** |
| İl üzrə cəmi ümumi gəlir | - | 2,370 | 2,690 | (11,854) | 139,592 | **132,798** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (127,000) | **(127,000)** |
| **31 dekabr 2021-ci il** | **1,241,287** | **(36,175)** | **42,616** | **74,670** | **380,293** | **1,702,691** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İl üzrə cəmi ümumi gəlir | - | (1,237) | 103 | (49,851) | 288,782 | **237,797** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (125,000) | **(125,000)** |
| Səhmlərin və müvafiq hesablanmış dividendlərin ləğvi | (15,639) | - | - | - | 20,514 | **4,875** |
| **31 dekabr 2022-ci il** | **1,225,648** | **(37,412)** | **42,719** | **24,819** | **564,589** | **1,820,363** |
| İl üzrə cəmi ümumi gəlir | - | (29,436) | 2,613 | 29,063 | 380,888 | **383,128** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (156,600) | **(156,600)** |
| **31 dekabr 2023-cü il** | **1,225,648** | **(66,848)** | **45,332** | **53,882** | **788,877** | **2,046,891** |

13.2.**Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri:** Hazırkı Emissiya Prospektinin 7-ci bəndində açıqlanır.

13.3 **Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat:**

Hal-hazırda emitentin borclanma ehtiyacları mövcud deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tutulan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər. Emitentin Nizamnamə kapitalı və "Banklar haqqında" Qanunun 32-ci maddəsində nəzərdə tutulmuş fəaliyyətlər nəticəsində əldə olunan bütün gəlirlər emitentin maliyyələşmə strukturunu təşkil edir.

**13.4 Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat:**

Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlər "Banklar haqqında" Qanunun 22.2, 22.3, 30 və 33-cü maddələrində təsvir olunmuşdur.

"Banklar haqqında" Qanunun 22.2-ci maddəsinə əsasən, bank, kapitalına mühüm iştirak payı olan şəxsin başqa hüquqi şəxsin kapitalında mühüm iştirak payı əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə Mərkəzi Banka yazılı bildiriş göndərməlidir.

Həmin Qanunun 22.3-cü maddəsinə əsasən, bank, kapitalında mühüm iştirak payı olan hüquqi şəxsin kapitalında hər hansı şəxsin mühüm iştirak payını əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə Mərkəzi Banka yazılı bildiriş göndərməlidir.

Həmin Qanunun 30.1-ci maddəsinə əsasən, Bankın başqa hüquqi şəxsdə iştirak payı əldə etməsi aşağıdakı hallardan birinə səbəb olarsa, bank həmin payı əldə etmək hüququna malik deyildir:

- iştirak payının balans məbləği bankın məcmu kapitalının 10 faizindən çox olduqda;
- bankın bütün bu cür iştirak paylarının məcmu bala ns məbləği bankın məcmu kapitalının 40 faizindən çox olduqda.

Həmin Qanunun 33-cü maddəsinə əsasən, "Banklar haqqında" Qanunun 32-ci maddəsində icazə verilmiş fəaliyyət növləri istisna olmaqla, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz.

Öhdəlik üzrə tələblərini ödəmək məqsədilə bank yalnız Mərkəzi Bankın icazəsi ilə və yalnız icazədə göstərilən müddət ərzində yuxarıda göstərilən fəaliyyət növlərini həyata keçirə və ya həmin fəaliyyət növlərini həyata keçirən hüquqi şəxslərdə tərəfdaş, şərik və ya payçı kimi iştirak edə bilər.

**13.5 Bu Emissiya Prospektinin 8.6-cı və 9.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat:**

Bu Emissiya Prospektinin 8.6 və 9.1-ci bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbəsi qismində emitentin fəaliyyəti nəticəsində əldə olunan bütün gəlirlər çıxış edir.

## 14. TƏDQİQATLAR, LİSENZİYALAR VƏ PATENTLƏR

14.1. **Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat:**

Emitentin **"ABB"** adlı əmtəə nişanı 26.02.2024-cü il tarixində 2024 0392 nömrəsi ilə dövlət reyestrində qeydə alınmışdır.

Emitentin **“Hesabdar, Maliyyəçilər klubu”** adlı əmtəə nişanı 21.02.2020-ci il tarixində 2020 0361 nömrəsi ilə dövlət reyestrində qeydə alınmışdır.
Emitentin **“QayğıCash”** adlı əmtəə nişanı 21.02.2020-ci il tarixində 2020 0362 nömrəsi ilə dövlət reyestrində qeydə alınmışdır.
Emitentin **“Sahibkarlar klubu, fayda və dəstək”** adlı əmtəə nişanı 21.02.2020-ci il tarixində 2020 0363 nömrəsi ilə dövlət reyestrində qeydə alınmışdır.
Emitentin **“Fayda loyallıq proqramı”** adlı əmtəə nişanı 07.10.2022-cı il tarixində 2022 2203 nömrəsi ilə dövlət reyestrində qeydə alınmışdır.
Əmtəə nişanlarının dövlət reyestrində qeydə alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş miqdarda dövlət rüsumu və xidmət haqqı ödənilmişdir.

## 15. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

15.1. **Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar:**

Hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 2.4-cü bəndində açıqlanır.

15.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitentin cari ildə fəaliyyətinə təsir göstərən əsas faktorlar Azərbaycanın iqtisadi artım templəri və ölkədə inflyasiyanın dinamikasıdır. İqtisadi artım templərinin artması təsərrüfat subyektlərinin gəlirlərinə müsbət təsir etməklə, bu subyektlər tərəfindən istehsalat və (ya) satış həcmlərinin artırılması üçün münbit şərait yaradır. Bu şəraitdə bank kreditlərinə tələbat artır, verilmiş kreditlərin qeyri-qənaətbəxş kreditlərə çevrilməsi ehtimalı azalır. Bankın kredit portfelinin artması və verilmiş kreditlər üzrə daha az ehtiyatların yaradılması bankın xalis mənfəətinin artmasına müsbət təsir göstərən əsas faktorlardandır.
Digər tərəfdən, inflyasiyanın yüksək olması Mərkəzi Bank tərəfindən pul siyasətinin sərtləşdirilməsi və nəticə etibarı ilə faiz dərəcələrinin tədricən artmasına zəmin yarada bilər. Faiz dərəcələrinin artması cəlb edilən depozitlər üzrə faiz xərclərinin artmasına və nəticə etibarı ilə emitentin xalis mənfəətinə mənfi təsir edə bilər.
Beynəlxalq Valyuta Fondu Azərbaycanın 2024-cü il üzrə ümumi daxili məhsulunun artım templəri və inflyasiya üzrə aşağıdakı proqnozları vermişdir:

| | 2024-cü il üzrə proqnoz | 2023-cü il üzrə faktiki |
|---|---|---|
| Ümumi daxili məhsulun artım tempi | 2,8% | 1,1% |

| | | |
|---|---|---|
| Inflyasiya | 3,5% | 8,8% |

## 16. GƏLİR PROQNOZU:

Mövcud deyil.

## 17. EMİTENTİN TƏSİSÇİLƏRİ, İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

17.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin ali idarəetmə orqanı:**

Səhmdarların ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı növbəti (illik) və növbədənkənar keçirilir. Emitentin səhmdarları və nizamnamə kapitalında mayalarının miqdarı barədə məlumat:

- Azərbaycan Respublikası (96,3678 %);
- "Aqrarkredit" QSC BOKT (0.2296 %);
- Milli Depozit Mərkəzinin reyestrində göstərilən digər fiziki və hüquqi şəxslər;

**İdarə Heyəti barədə məlumat:**

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| **1** | Abbas İbrahimov Məmmədəli oğlu | İdarə Heyətinin sədri | Son 5 il ərzində digər hüquqi şəxslərdə vəzifə tutmayıb | 1. Ankara Universiteti<br>2. İstanbul Texniki Üniversiteti | 1. Sənayenin təşkili və idarə edilməsi (bakalavr)<br>2. MBA | yoxdur |
| **2** | İlham Həbibullayev Səbahəddin oğlu | İdarə Heyətinin sədrinin birinci müavini | "Azərikard" MMC-nin Müşahidə Şurasının sədri (hal -hazırda), "ABB İnvest İnvestisiya Şirkəti" QSC-nin Müşahidə Şurasının sədri (hal-hazırda) "ABB" ASC-nin İdarə Heyəti sədrinin müşaviri oktyabr 2019 – mart 2020 | 1. Bakı Dövlət Universiteti<br>2. İstanbul Universiteti – Sosial Elmlər İnstitutu<br>3. Azərbaycan Dövlət İqtisad Universiteti | 1. Tarix (bakalavr)<br>2. Tarix (magistr)<br>3. Maliyyə və kredit | yoxdur |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **3** | Aqşin Əmirov Zəkaray oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Risk İnzibatçısı | "Bank MBA Moskva" MMC-nin Müşahidə Şurasının üzvü (hal-hazırda), "Beynəlxalq Lizinq" QSC-nin Müşahidə Şurasının sədri (hal-hazırda) | 1. Azərbaycan Dövlət İqtisad Universiteti<br>2. Azərbaycan Dövlət İqtisad Universiteti<br>3. London Business School | 1. İqtisadiyyatın tənzimlənməsi (bakalavr)<br>2. İqtisadiyyatın tənzimlənməsi (magistr)<br>3. Biznes inzibatçılığı və menecmenet (MBA) | yoxdur |
| 4 | Nəbi Əliyev Etibar oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Maliyyə İnzibatçısı | "Bank MBA Moskva" MMC-nin Müşahidə Şurasının sədri (hal-hazırda), | 1. Azərbaycan Dövlət İqtisad Universiteti<br>2. Azərbaycan Dövlət İqtisad Universiteti<br>3. Elmi-tədqiqat İnstitutu<br>4. Oksford Universteti | 1. Beynəlxalq münasibətlər (bakalavr)<br>2. Beynəlxalq münasibətlər (magistr)<br>3. İqtisad elmləri üzrə fəlsəfə doktoru<br>4. Biznes idarəçiliyi (MBA) | yoxdur |
| **5** | Taleh Tahirli Ağacan oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Transformasiya İnzibatçısı | Son 5 il ərzində digər hüquqi şəxslərdə vəzifə tutmayıb | 1. Qafqaz Universiteti<br>2. School of Business, Law and Economics / Gothenburg University<br>3. HEC Paris | 1. Biznesin təşkili və idarəedilməsi (bakalavr)<br>2. İdarəetmə (magistr)<br>3. İnnovasiyaların tətbiq edilməsi (magistr) | yoxdur |
| **6** | Həbibullayev Elmir Şirin oğlu | İdarə Heyətinin sədrinin müavini | Son 5 il ərzində digər hüquqi şəxslərdə vəzifə tutmayıb | 1. Azərbaycan Dövlət İqtisad Universiteti<br>2. Azərbaycan Dövlət İqtisad Universiteti | 1. Ümumi İqtisadiyyat (bakalavr)<br>2. Ümumi İqtisadiyyat (magistr) | 0.008% (373287 ədəd) |
| **7** | Əhmədov Vasif Eldar oğlu | İdarə Heyətinin sədrinin müavini | "Bank MBA Moskva" MMC-nin Müşahidə Şurasının üzvü (hal-hazırda) | 1. SSRİDTK-nin Ali məktəbi<br>2. Rusiya Federasiyası XİN Dip. Akademiyası | 1. Beynəlxalq əlaqələr<br>2. Beynəlxalq əlaqələr | yoxdur |

İdarə Heyətinin üzvlərinin son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluqları olmamışdır, xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yaranmamışdır.

**Audit komitəsi barədə məlumat:**

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | Azad Məmmədov Musa oğlu | Audit Komitəsinin sədri | Audit Komitəsinin sədri | D.Büyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu | Ümumi iqtisad fakultəsi | |
| 2 | Zamiq Məmmədov İsa oğlu | Audit Komitəsinin üzvü | Audit Komitəsinin üzvü, "Azərikard" MMC-nin Müşahidə Şurasının üzvü, "Azərbaycan Kredit Bürosu" MMC-nin Müşahidə Şurasının üzvü / Baş direktor | 1. Azərbaycan Dövlət İqtisad Universiteti<br>2. Doqquz Eylül Universiteti<br>3. Marmara Universiteti, | 1. Beynəlxalq Ticarət (Bakalavr)<br>2. Pul və Bank (Magistr)<br>3. Bank işi (Fəlsəfə doktoru) | |
| 3 | Məcid Məmmədov Həsən oğlu | Audit Komitəsinin üzvü, Müşahidə Şurasının müşaviri | Audit Komitəsinin üzvü, Müşahidə Şurasının müşaviri, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-nin Müşahidə Şurasının üzvü | 1. **Bakı Dövlət Universiteti**<br>2. **Roosevelt University, USA**<br>3. **Azərbaycan Dövlət İqtisad Universiteti**<br>4. **Warwick Business School, UK** | 1. **Beynəlxalq münasibətlər (Bakalavr)**<br>2. **Mübadilə proqramı**<br>3. Maliyyə (magistratura)<br>4. MBA | |

**Müşahidə Şurası barədə məlumat:**

| | ASA | Hazırda tutduğu vəzifə | Son 5 il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə | Təhsili - Universitet | İxtisas | Emitentin nizamnamə kapitalında payı (faizlə) və ya emitentin səhmlərinə olan opsionları |
|---|---|---|---|---|---|---|
| **1** | Şahmar Mövsümov Arif oğlu | Müşahidə Şurasının sədri | | Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu<br><br>Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi | İqtisadçı<br><br>Dövlət idarəçiliyi (magistr) | |
| **2** | Xalid Əhədov Nurəddin oğlu | Müşahidə Şurasının üzvü | | Azərbaycan Dövlət İqtisad Universiteti<br><br>Avropanın Instituto de Empresa (IE) biznes məktəbi | Maliyyə və kredit<br><br>Biznesin idarə edilməsi (MBA) | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | London School of Economics-də (LSE) | Dövlət inzibatçılığı (EMPA) | |
| **3** | Emin Hüseynov Zamin oğlu | Müşahidə Şurasının üzvü | | Azərbaycan Dövlət İqtisad Universiteti<br><br>Florida Universiteti<br><br>Harvard Universitetinin Con Kennedi adına Hökumət məktəbi | Beynəlxalq iqtisadi münasibətlər<br><br>İqtisadiyyat (magistr)<br><br>Dövlət idarəçiliyi (magistr) | |
| **4** | Mətin Eynullayev Balasən oğlu | Müşahidə Şurasının üzvü | | Bakı Dövlət Universiteti | Hüquqşünaslıq | |
| **5** | Fəxri İsmayılov Yaşar oğlu | Müşahidə Şurasının üzvü | | Azərbaycan Dövlət İqtisad Universiteti<br><br>Azərbaycan Dövlət İqtisad Universiteti<br><br>Harvard Universitetinin Kennedi İdarəçilik Məktəbi<br><br>Corc Vaşinqton Universiteti | Maliyyə və kredit (bakalavr)<br><br>Maliyyə və kredit (magistr)<br><br>Dövlət maliyyə idarəetməsi proqramı<br><br>Post-doktorantura proqramı | |

**17.1.1. Bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat;**

Qohumluq əlaqələri mövcud deyil

**17.1.2. Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat**;

Mövcud deyil

**17.1.3. Şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesinin başlanması haqqında məlumat**;

Mövcud deyil

**17.1.4. Şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat;**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə

Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, Mülki Məcəllə, "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.

## 18. EMİTENTİN İDARƏEDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN MÜKAFATLANDIRILMASI, İMTİYAZLARI VƏ DİGƏR KOMPENSASİYALARI

18.1. **Emissiya Prospektinin 12.1-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər:**

31 Dekabr 2023-cü il tarixinə Emissiya Prospektinin 12.1-ci bəndində göstərilən şəxslərə ümumi 7,138,114 AZN ödəniş edilmişdir.

18.2. **Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:**

Mövcud deyil.

## 19. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

19.1. **Maliyyə ilinin nəticələrinə əsasən Emissiya Prospektinin 12.1-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:**

**19.1.1. cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi:**

**<u>İdarə Heyəti üzvlərinin səlahiyyət müddətləri</u>**

| № | İdarə Heyəti üzvlərinin soyadı, adı, atasının adı | Vəzifəsi | Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarının tarixi, protokolun nömrəsi | Bankın İdarə Heyəti üzvlərinin səlahiyyət müddətinin başlama tarixi | Bankın İdarə Heyəti üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | Abbas İbrahimov Məmmədəli oğlu | İdarə Heyətinin sədri | **Səhmdarlarının Ümumi Yığıncağı - 25.10.2021, protokol № 1, qərar № 2** | 25-10-21 | 24-10-24 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2** | İlham Həbibullayev Səbahəddin oğlu | İdarə Heyətinin sədrinin birinci müavini | Müşahidə Şurası – 23.01.2023, Protokol № 2, Qərar № 3 | 23-01-23 | 23-01-26 |
| **3** | Aqşin Əmirov Zəkaray oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Risk İnzibatçısı | Müşahidə Şurası – 14.04.2022, Protokol № 8, Qərar № 13 | 14-04-22 | 14-04-25 |
| **4** | Nəbi Əliyev Etibar oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Maliyyə İnzibatçısı | Müşahidə Şurası – 14.04.2022, Protokol № 8, Qərar № 13 | 14-04-22 | 14-04-25 |
| **5** | Taleh Tahirli Ağacan oğlu | İdarə Heyətinin sədrinin müavini – Baş Transformasiya İnzibatçısı | Müşahidə Şurası – 23.01.2023, Protokol № 2, Qərar № 3 | 23-01-23 | 23-01-26 |
| **6** | Həbibullayev Elmir Şirin oğlu | İdarə Heyətinin sədrinin müavini | Müşahidə Şurası – 13.06.2023, protokol № 14, Qərar № 2 | 13-06-23 | 13-06-26 |
| **7** | Əhmədov Vasif Eldar oğlu | İdarə Heyətinin sədrinin müavini | Müşahidə Şurası – 17.12.2021, protokol № 19, qərar № 16 | 17-12-21 | 17-12-24 |

## Audit Komitəsinin üzvlərinin səlahiyyət müddətləri

| **№** | **Audit Komitəsi üzvlərinin soyadı, adı, atasının adı** | **Vəzifəsi** | **Bankın MŞ qərarının tarixi, protokolun nömrəsi** | **Audit Komitəsi üzvlərinin səlahiyyət müddətinin başlama tarixi** | **Audit Komitəsi üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi** |
|---|---|---|---|---|---|
| **1** | Azad Məmmədov Musa oğlu | Audit Komitəsinin sədri | 17.12.2021 , protokol № 19, Qərar № 26 | 17-12-21 | 17-12-24 |
| **2** | Zamiq Məmmədov İsa oğlu | Audit Komitəsinin üzvü | 17.12.2021 , protokol № 19, Qərar № 26 | 17-12-21 | 17-12-24 |
| **3** | Məcid Məmmədov Həsən oğlu | Audit Komitəsinin üzvü | 17.12.2021 , protokol № 19, Qərar № 26 | 17-12-21 | 17-12-24 |

## Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətləri

| № | Müşahidə Şurası üzvlərinin soyadı, adı, atasının adı | Vəzifəsi | Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarının tarixi, protokolun nömrəsi | Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətinin başlama tarixi | Müşahidə Şurası üzvlərinin səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|---|---|---|
| **1** | Şahmar Mövsümov Arif oğlu | Müşahidə Şurasının sədri | **25.10.2021, protokol № 1, qərar № 1** | 25-10-21 | 24-10-24 |
| **2** | Xalid Əhədov Nurəddin oğlu | Müşahidə Şurasının üzvü | **25.10.2021, protokol № 1, qərar № 1** | 25-10-21 | 24-10-24 |
| **3** | Emin Hüseynov Zamin oğlu | Müşahidə Şurasının üzvü | **25.10.2021, protokol № 1, qərar № 1** | 25-10-21 | 24-10-24 |
| **4** | Mətin Eynullayev Balasən oğlu | Müşahidə Şurasının üzvü | **25.10.2021, protokol № 1, qərar № 1** | 25-10-21 | 24-10-24 |
| **5** | Fəxri İsmayılov Yaşar oğlu | Müşahidə Şurasının üzvü | **25.10.2021, protokol № 1, qərar № 1** | 25-10-21 | 24-10-24 |

**19.1.2. Səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat:**

Mövcud deyil

19.2. **Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

19.3. Audit Komitəsinin üzvləri barədə məlumat bu Emissiya Prospektinin I hissəsinin 12.1-ci bəndində əks olunmuşdur.

**Audit Komitəsinin gördüyü işlər:**

| № | Komitənin sədr və üzvləri | |
|---|---|---|
| **1** | Azad Məmmədov Musa oğlu | Audit Komitəsinin sədri |
| **2** | Zamiq Məmmədov İsa oğlu | Audit Komitəsinin üzvü |

| 3 | Məcid Məmmədov Həsən oğlu | Audit Komitəsinin üzvü |
|---|---|---|

**Audit Komitəsinin gördüyü işlər:**

Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Bankın audit siyasətini və strategiyasını müəyyən etmək və həyata keçirilməsini təmin etmək;
- Daxili audit planlarını təsdiq etmək, ona dəyişikliklər etmək, plandankənar yoxlama və monitorinqlər təyin etmək, Departamentin fəaliyyətinə nəzarəti həyata keçirmək;
- Kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər və tövsiyə vermək;
- Kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək;
- Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;
- Normativ xarakterli aktlarla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

Komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Departamentin fəaliyyətini təşkil etmək, eləcə də onun fəaliyyətinə nəzarəti həyata keçirmək;
- Departamentin əsasnaməsi və onun fəaliyyəti ilə bağlı xərclər haqqında Müşahidə Şurasına təklif vermək;
- Departamentin direktoru və əməkdaşlarının vəzifə təlimatlarını təsdiq etmək;
- Daxili audit yoxlama və monitorinqləri həyata keçirəcək auditorlara (yoxlama qrupuna) yoxlama vəsiqələrinin verilməsini təmin etmək;
- Departamentin direktoru və əməkdaşlarının işə qəbul olunması və əmək haqqı məbləğləri, vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması və intizam tənbehinə cəlb edilməsi ilə bağlı Müşahidə Şurasına təkliflər vermək;
- Daxili audit yoxlamalarının nəticələri və yoxlamaların nəticəsində aşkarlanan nöqsanların aradan qaldırılmasına, eyni zamanda daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təklif və tövsiyələr vermək;
- Kənar auditordan audit zamanı aşkar olunan mühüm nöqsanlar, faktlar və hadisələr haqqında məlumat(lar)ın Komitəyə dərhal verilməsini tələb etmək;
- Kənar auditorla birgə işin təşkili ilə əlaqədar Banka aidiyyəti olan Bankın fəaliyyətinə dair bütün əhəmiyyətli məlumatların, Bank sənədlərinin kənar auditora vaxtında və tam təqdim edilməsini təmin etmək;
- Qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

**Mükafatlandırma komitəsinin üzvləri:**

| No. | Komitənin sədr və üzvləri | |
|---|---|---|
| 1. | Emin Hüseynov Zamin oğlu | Mükafatlandırma komitəsinin sədri |
| 2. | Xalid Əhədov Nurəddin oğlu | Mükafatlandırma komitəsinin üzvü |
| 3. | Aqşin Əmirov Zəkaray oğlu | Mükafatlandırma komitəsinin üzvü |
| 4. | Aynur Süleymanlı Yalçın qızı | Mükafatlandırma komitəsinin üzvü |
| 5. | Əzim Kazımov Mirzakir oğlu | Mükafatlandırma komitəsinin üzvü |

**Mükafatlandırma Komitəsinin gördüyü işlər:**

Mükafatlandırma Komitəsinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Komitənin fəaliyyətinin təmin olunması məqsədilə Bankın digər struktur bölmələrindən məlumatlar almaq;
- Komitənin iclaslarında müzakirə olunan məsələlərin mahiyyətindən asılı olaraq Bankın digər əməkdaşlarını dəvət etmək;
- Bankda mükafatlandırma mexanizminin təkmilləşdirilməsi məqsədilə kənar ekspertlərin cəlb edilməsi, qabaqcıl beynəlxalq təcrübəni araşdırmaqla onun ölkə qanunvericiliyinə uyğunlaşdırılmış formada tətbiq edilməsinə dair Müşahidə Şurasına təkliflər vermək.

Komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Bankın mükafatlandırma siyasətini hazırlayaraq təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim etmək, eləcə də onun mütəmadi təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;
- Mükafatlandırma siyasətinin Bankda onun risklərin idarə olunması siyasətinə uyğun və uzunmüddətli fəaliyyət nəticələrinə əsaslanması, strateji hədəflərə nail olunmasına yönəldilməsi, Bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə xidmət etməməsi, eləcə də Bank əməkdaşları və idarəetmə orqanları üzvlərinin əməyinin ödənilməsinin mükafatlardan asılı olmaması prinsipinə uyğunluğunu təmin etmək;
- Mükafatlandırma prosesinə ümumi nəzarəti həyata keçirmək;
- Ən azı ildə bir dəfə Strategiya və risklərin idarə edilməsi Komitəsi ilə birgə mükafatlandırma siyasətinin səmərəliliyini qiymətləndirmək;
- Mükafatlandırmanın ümumi həcmi üzrə təklifləri Müşahidə Şurasına təqdim etmək;
- Qanunvericiliklə müəyyən olunmuş qaydada Bankın Müşahidə Şurasına hesabat vermək.

19.4. **Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat.**

Emitent öz fəaliyyətində prudensial və fidusiar nəzarətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankının 23.08.2023-cü il tarixli, 41/1 nömrəli

Qərarı ilə təsdiq edilmiş “Banklarda korporativ idarəetmə Standartları”nı rəhbər tutur. Yeni standartlara uyğunluğun təmin olunması məqsədilə Tədbirlər Planı hazırlanmışdır və mütəmadi qaydada İdarə Heyəti tərəfindən müzakirə olunur.

## 20. EMİTENTİN İŞÇİ HEYƏTİ

20.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı:**

Emitentin müvəqqəti işçiləri (1-3 ay müddətində xidməti müqavilə əsasında işləyənlər) yoxdur.

**Daimi işçilər barədə məlumat:**

2021-ci ilin sonuna – 2800

2022-ci ilin sonuna – 3096

2023-cü ilin sonuna – 3494

20.2. **İşçilərin emitentin nizamnamə kapitalında iştirakı:** Emissiya prospektinin dərc edilmə tarixinə olan məlumata əsasən emitentin 83 nəfər işçisi ümumi sayı 16,968,192 ədəd, nominal dəyəri isə 4,581,412 AZN olmaqla emitentin nizamnamə kapitalında paya malikdirlər.

20.3. **Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat:** Mövcud deyil.

## 21. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN SƏHMDARLAR

21.1. **Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:** Bu məlumatlar hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 2.6-cı bəndində açıqlanır.

21.2. **Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları haqqında məlumat:** Bu məlumatlar hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 2.7-ci bəndində açıqlanır.

21.3. **Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyətləri və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün tədbirlərin təsviri:** Bu məlumatlar hazırkı Emissiya Prospektinin "Xülasə" hissəsinin 2.8-ci bəndində açıqlanır. Eyni zamanda, Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

21.4. **Mühüm iştirak payına sahib olan səhmdarların dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Məlumat yoxdur.

## 22. AİDİYYƏTİ ŞƏXSLƏRLƏ ƏMƏLİYYATLAR

22.1. **Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə aşağıdakı məlumat Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat;**

| | 31 dekabr 2021-ci il | | | |
|---|---|---|---|---|
| | Hökumət orqanları və dövlət müəssisələri | Qrupun əsas rəhbərlik heyəti | Asılı müəssisələr | Digər əlaqəli tərəflər |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 2,443,347 | - | - | - |
| Banklardan və digər maliyyə təşkilatlarından | - | - | - | - |
| İnvestisiya qiymətli kağızları | 800,522 | - | 490 | - |
| Müştərilərə verilmiş kreditlər, ümumi | 574,091 | 650 | - | 875 |
| Digər aktivlər | 3,991 | - | - | - |
| "Aqrarkredit" QSC-dən alınacaq məbləğlər | 483,030 | - | - | - |
| Müştəri hesabları | (6,272,823) | (1,171) | - | (19,074) |
| "Aqrarkredit" QSC-yə ödəniləcək məbləğlər | (78,270) | - | - | - |
| Banklar və digər maliyyə şirkətlər qarşısında öhdəliklər | (8,031) | - | - | (510) |
| Digər borc öhdəlikləri | (251,561) | - | - | - |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 511,686 | 81 | - | 192 |
| Akkreditivlər və zəmanətlər | 490,892 | | - | 3,400 |

| | | | | |
|---|---|---|---|---|
| Faiz gəliri | 158,227 | 54 | - | 131 |
| Faiz xərci | (81,421) | | - | (165) |
| Xarici valyuta ilə əməliyyatlardan gəlirlər – dilinq | 33,648 | 3 | - | - |
| Haqq və komissiya gəliri | 21,615 | 5 | - | 52 |
| Haqq və komissiya xərci | (3,268) | - | - | - |
| Əməliyyat xərcləri | (7,472) | (13,725) | - | - |

| | 31 dekabr 2022-ci il | | | |
|---|---|---|---|---|
| | **Hökumət orqanları və dövlət müəssisələri** | **Qrupun əsas rəhbərlik heyəti** | **Asılı müəssisələr** | **Digər əlaqəli tərəflər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1,134,605 | - | - | - |
| Banklardan və digər maliyyə təşkilatlarından | 1,463,776 | - | - | - |
| İnvestisiya qiymətli kağızları | 1,241,282 | - | 490 | - |
| Müştərilərə verilmiş kreditlər, ümumi | 385,790 | 1,719 | | 1,779 |
| Digər aktivlər | 3,010 | - | - | - |
| “Aqrarkredit” QSC-dən alınacaq məbləğlər | 384,959 | - | - | - |
| Müştəri hesabları | (7,965,376) | (1,330) | - | (13,568) |
| “Aqrarkredit” QSC-yə ödəniləcək məbləğlər | (63,030) | - | - | - |
| Banklar və digər maliyyə şirkətlər qarşısında öhdəliklər | (16,869) | - | - | (3,843) |
| Digər borc öhdəlikləri | (229,025) | - | - | - |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 496,706 | 34 | | 149 |
| Akkreditivlər və zəmanətlər | 480,823 | - | - | 3,400 |
| Faiz gəliri | 145,089 | 112 | - | 252 |
| Faiz xərci | (74,674) | (2) | - | (125) |

| | | | | |
|---|---|---|---|---|
| Xarici valyuta ilə əməliyyatlardan gəlirlər – dilinq | 29,158 | 5 | - | 24 |
| Haqq və komissiya gəliri | 37,250 | 7 | - | 76 |
| Haqq və komissiya xərci | (11,848) | - | - | - |
| Əməliyyat xərcləri | (17,730) | (15,417) | - | - |

| | 31 dekabr 2023-cü il | | | |
|---|---|---|---|---|
| | **Hökumət orqanları və dövlət müəssisələri** | **Qrupun əsas rəhbərlik heyəti** | **Asılı müəssisələr** | **Digər əlaqəli tərəflər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 722,171 | - | - | - |
| Banklardan və digər maliyyə təşkilatlarından | 1,508,289 | - | - | - |
| İnvestisiya qiymətli kağızları | 1,824,854 | - | - | - |
| Müştərilərə verilmiş kreditlər, ümumi | 538,000 | 3,496 | - | - |
| Digər aktivlər | 49,907 | - | - | - |
| “Aqrarkredit” QSC-dən alınacaq məbləğlər | 296,462 | - | - | - |
| Müştəri hesabları | (6,391,001) | (41) | - | - |
| “Aqrarkredit” QSC-yə ödəniləcək məbləğlər | (61,950) | - | - | - |
| Banklar və digər maliyyə şirkətlər qarşısında öhdəliklər | (42,305) | - | - | - |
| Digər borc öhdəlikləri | (214,519) | - | - | - |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 49,141 | 28 | - | - |
| Akkreditivlər və zəmanətlər | 594,670 | | - | - |
| Faiz gəliri | 137,779 | 226 | - | - |
| Faiz xərci | (84,025) | (7) | - | - |

| | | | | |
|---|---|---|---|---|
| Xarici valyuta ilə əməliyyatlardan gəlirlər – dilinq | 29,027 | 4 | - | - |
| Haqq və komissiya gəliri | 41,539 | 10 | - | - |
| Haqq və komissiya xərci | (9,422) | - | - | - |
| Əməliyyat xərcləri | (21,555) | (18,436) | - | - |

22.2. **Məlumat MHBS uyğun olaraq tərtib edilmədiyi təqdirdə, həmin məlumat aşağıdakıları özündə əks etdirməlidir:** Məlumat MHBS-yə uyğun tərtib edilmişdir**.**

## 23. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

23.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:
Link: **https://abb-bank.az/az/hesabatlar**

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı)*

| Mənfəət və zərər maddələri | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| Effektiv faiz dərəcəsini istifadə etməklə hesablanmış faiz gəliri | 787,709 | 595,769 | 441,975 |
| Faiz xərci | (151,875) | (111,105) | (116,231) |
| **Xalis faiz gəliri (zərəri)** | **635,834** | **484,664** | **325,744** |
| Kredit zərəri geri qaytarılma | (7,848) | (36,192) | 8,238 |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərlərindən sonra xalis faiz gəliri** | **627,986** | **448,472** | **333,982** |
| Qeyri-faiz zərəri | (143,824) | (80,806) | (150,908) |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | **484,162** | **367,666** | **183,074** |
| Mənfəət vergisi xərci | (103,274) | (78,884) | (43,482) |
| **İl üzrə xalis mənfəət** | **380,888** | **288,782** | **139,592** |

# BALANS HESABATI

*(min Azərbaycan manatı)*

| | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| **Aktivlərin maddələri** | | | |
| 1. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 2,816,799 | 5,375,211 | 6,837,554 |
| a) Kassada olan pul vəsaitləri | 444,220 | 364,331 | 320,909 |
| b) Yolda olan pul vəsaitləri | 6,764 | - | - |
| c) Mərkəzi banklarda cari hesablar | 834,738 | 1,158,441 | 2,443,338 |
| d) Kredit təşkilatlarında müxbir hesablar və müddəti 90 günədək olan müddətli depozitlər | 1,531,077 | 3,852,439 | 4,073,307 |
| 2.Mərkəzi banklarda məcburi pul qalıqları | 1,823,961 | 470,293 | 65,493 |
| 3. Banklar da daxil olmaqla, maliyyə institutlarındakı depozitlər | 1,571,285 | 1,488,178 | 43,999 |
| 4. Qiymətli kağızlar | 2,052,269 | 2,727,517 | 1,081,036 |
| 5. Müştərilərə verilmiş kreditlər | 4,910,003 | 3,401,058 | 2,958,768 |
| 6. “Aqrarkredit” QSC-dən alınacaq məbləğlər | 294,902 | 382,974 | 480,369 |
| 7. Cari mənfəət vergisi aktivləri | 2,103 | 6,415 | 115 |
| 8. Təxirə salınmış mənfəət vergisi aktivləri | 525 | 3,393 | 1,123 |
| 9. Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 244,788 | 225,482 | 214,460 |
| 10. Digər maliyyə aktivləri | 169,623 | 73,681 | 51,533 |
| 11. Digər qeyri-maliyyə aktivləri | 43,071 | 23,417 | 18,809 |
| **Cəmi aktivlər** | **13,929,329** | **14,177,619** | **11,753,259** |

| | | | |
|---|---|---|---|
| **Öhdəliklərin maddələri** | | | |
| 1. Banklar və digər maliyyə təşkilatları qarşısında öhdəliklər | 577,300 | 82,001 | 71,387 |

| | | | |
|---|---|---|---|
| a) Qeyri-rezident bankların müxbir hesablar | 59,138 | 14,718 | 1,601 |
| b) Rezident bankların müxbir hesabları | 96,277 | 58,045 | 57,034 |
| c) Rezident bankların və digər maliyyə təşkilatların müddətli depozitləri | 376,823 | 9,238 | 12,752 |
| d) REPO müqavilələri üzrə kreditor borcları | 45,062 | - | - |
| 2. Hüquqi şəxs hesabları | 8,035,780 | 9,332,593 | 7,436,947 |
| 3. Fiziki şəxs hesabları | 2,226,027 | 1,919,428 | 1,259,644 |
| 4. "Aqrarkredit" QSC-yə ödəniləcək məbləğlər | 61,950 | 63,030 | 78,270 |
| 5. Digər borc öhdəlikləri | 229,053 | 229,025 | 262,828 |
| 6. Buraxılmış borc qiymətli kağızlar | 496,968 | 504,403 | 728,264 |
| 7. Cari mənfəət vergisi öhdəlikləri | 2,178 | 52,325 | 23,699 |
| 8. Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 55,085 | 37,794 | 73,987 |
| 9. Digər öhdəliklər | 198,097 | 136,657 | 115,542 |
| **10. Cəmi öhdəliklər** | **11,882,438** | **12,357,256** | **10,050,568** |

| **Kapital** | | | |
|---|---|---|---|
| 1. Səhm kapitalı | 1,225,648 | 1 225 648 | 1,241,287 |
| 2. Əlavə ödənilmiş kapital | - | - | - |
| 3. Məzənnə fərqi üzrə ehtiyat | (66,848) | (37,412) | (36,175) |
| 4. Binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı | 45,332 | 42,719 | 42,616 |
| 5. İnvestisiya qiymətli kağızları üzrə realizasiya edilməmiş gəlir | 53,882 | 24,819 | 74,670 |
| 6. Bölüşdürülməmiş mənfəət və digər ehtiyatlar | 788,877 | 564,589 | 380,293 |
| **Cəmi kapital** | **2,046,891** | **1,820,363** | **1,702,691** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı)*

| | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə əldə edilmiş pul vəsaitlərinin hərəkəti | 507,483 | 393,724 | 265,214 |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitlərinin hərəkəti | (2,853,748) | 793,498 | 5,431,978 |
| Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitlərinin hərəkəti | (2,996,884) | 708,427 | 5,398,529 |
| İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti | 672,618 | (1,771,000) | (253,679) |
| Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti | (177,883) | (396,634) | (818,236) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım | (2,558,412) | (1,462,343) | 4,333,053 |
| **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **5,375,211** | **6,837,554** | **2,504,501** |
| **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **2,816,799** | **5,375,211** | **6,837,554** |

## KAPİTAL HƏRƏKƏTİ HESABATI

*(min Azərbaycan manatı)*

| | Səhm kapitalı | Məzənnə fərqi üzrə ehtiyat | Binalar və investisiya üzrə yenidənqiymətləndirmə ehtiyatı | İnvestisiya qiymətli kağızları üzrə realizasiya edilməmiş gəlir | Bölüşdürülməmiş mənfəət və digər ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **1,241,287** | **(38,545)** | **39,926** | **86,524** | **367,701** | **1,696,893** |
| İl üzrə cəmi ümumi gəlir | - | 2,370 | 2,690 | (11,854) | 139,592 | **132,798** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (127,000) | **(127,000)** |
| **31 dekabr 2021-ci il** | **1,241,287** | **(36,175)** | **42,616** | **74,670** | **380,293** | **1,702,691** |
| İl üzrə cəmi ümumi gəlir | - | (1,237) | 103 | (49,851) | 288,782 | **237,797** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (125,000) | **(125,000)** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Səhmlərin və müvafiq hesablanmış dividendlərin ləğvi | (15,639) | - | - | - | 20,514 | **4,875** |
| **31 dekabr 2022-ci il** | **1,225,648** | **(37,412)** | **42,719** | **24,819** | **564,589** | **1,820,363** |
| İl üzrə cəmi ümumi gəlir | - | (29,436) | 2,613 | 29,063 | 380,888 | **383,128** |
| Səhmdarlara bəyan edilmiş dividendlər | - | - | - | - | (156,600) | **(156,600)** |
| **31 dekabr 2023-cü il** | **1,225,648** | **(66,848)** | **45,332** | **53,882** | **788,877** | **2,046,891** |

23.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları;** Emitent 1992-ci ildən fəaliyyət göstərir.

23.3. **Emitent yeni yaradılmış hüquqi şəxs olduğu ilə əlaqədar maliyyə hesabatlarını tərtib edə bilmədiyi təqdirdə bu Qaydaların 3 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatlarının əvəzinə proforma maliyyə hesabatını təqdim etməlidir:** Emitent 1992-ci ildən fəaliyyət göstərir.

23.4. **Maliyyə hesabatları MHBS-yə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını MHBS-yə uyğun hazırlayır.

23.5. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**
Audit hesabatları konsolidasiya olunmuş qaydada tərtib edilmiş və 23.1-ci bəndə təqdim edilmişdir.

23.6. **Aralıq və digər maliyyə məlumatları;**

| **Maliyyə vəziyyəti haqqında hesabat 31.03.2024** | | | |
|---|---|---|---|
| | | | **min manatla** |
| | | **Hesabat dövrü** | **Ötən ilin sonu** |
| **1** | **Aktivlər:** | **13,189,302.72** | **13,668,241.87** |
| 1.1 | Nağd pul vəsaitləri və ekvivalentləri, o cümlədən bloklaşdırılmış nağd vəsait | 3,582,251.16 | 4,070,869.68 |

| | | | |
|---|---|---|---|
| 1.2 | Ticarət və investisiya qiymətli kağızları | 2,290,619.53 | 2,284,852.06 |
| 1.3 | Banklar və digər maliyyə institutlarındakı depozitlər | 1,796,917.00 | 1,845,788.25 |
| 1.4 | Banklar və digər maliyyə institutlarına verilən kreditlər | 20,201.98 | 23,484.50 |
| 1.5 | Müştərilərə verilmiş kreditlər | 5,341,495.24 | 5,048,771.91 |
| 1.5.1 | a) istehlak kreditləri | 1,489,835.90 | 1,370,120.00 |
| 1.5.2 | b) biznes kreditləri | 2,637,473.10 | 2,504,615.35 |
| 1.5.3 | c) daşınmaz əmlak kreditləri | 1,214,186.24 | 1,174,036.56 |
| 1.5.4 | d) digər kreditlər | 0.00 | 0.00 |
| 1.5.5 | (Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyat) | -401,173.00 | -364,692.99 |
| 1.5.6 | Müştərilərə verilmiş kreditlər (xalis) | 4,940,322.24 | 4,684,078.92 |
| 1.6 | Əmlak və avadanlıqlar | 183,795.39 | 184,632.10 |
| 1.7 | Qeyri-maddi aktivlər | 12,517.83 | 13,875.23 |
| 1.8 | Təxirə salınmış vergi aktivləri | 0.00 | 0.00 |
| 1.9 | Balansdankənar aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün məqsədli ehtiyat | -36,962.52 | -43,300.98 |
| 1.10 | Digər aktivlər | 399,640.11 | 603,962.11 |
| **2** | **Öhdəliklər:** | **11,296,917.66** | **11,858,024.19** |
| 2.1 | Depozitlər | 9,490,179.83 | 9,396,185.91 |
| 2.1.1 | a) fiziki şəxslərin depozitləri | 2,082,987.40 | 2,154,193.91 |
| 2.1.2 | b) hüquqi şəxslərin depozitləri | 7,407,192.43 | 7,241,992.00 |
| 2.2 | Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər | 0.00 | 0.00 |
| 2.3 | Kredit təşkilatları və digər maliyyə institutları qarşısında öhdəliklər | 582,496.97 | 702,417.95 |
| 2.4 | Borc qiymətli kağızları | 500,484.80 | 500,484.80 |
| 2.5 | Cari vergi öhdəlikləri | 31,731.83 | 13,641.10 |
| 2.6 | Təxirə salınmış vergi öhdəliyi | 19,735.85 | 19,735.85 |
| 2.7 | Subordinasiya borc öhdəlikləri | 0.00 | 0.00 |
| 2.8 | Digər öhdəliklər | 672,288.38 | 1,225,558.58 |
| **3** | **Kapital:** | **1,892,385.06** | **1,810,217.69** |
| 3.1 | Səhmdar kapitalı | 1,225,647.82 | 1,225,647.82 |
| 3.2 | Səhmin qiymətinin dəyişməsindən gəlir (zərər) | 0.00 | 0.00 |
| 3.3 | Bölüşdürülməmiş mənfəət | 457,460.92 | 376,853.59 |
| 3.4 | Ümumi ehtiyatlar: | 209,276.32 | 207,716.27 |
| 3.4.1 | a) kreditlər, lizinqlər və digər tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | 90,359.58 | 87,580.38 |
| 3.4.2 | b) əsas vəsaitlərin qiymətləndirilməsindən adi ehtiyatlar | 34,768.84 | 34,768.84 |
| 3.4.3 | c) digər ümumi ehtiyatlar | 84,147.90 | 85,367.05 |

| | | | |
|---|---|---|---|
| **4** | **Cəmi öhdəliklər və kapital** | **13,189,302.72** | **13,668,241.87** |

| Mənfəət və zərər haqqında hesabat 31.03.2024 | | | |
|---|---|---|---|
| | | min manatla | |
| | | Cari dövr | Keçən ilin müvafiq dövrü |
| **1** | **Faiz gəlirləri:** | **209,525.15** | **192,148.40** |
| 1.1 | Müştərilərə verilmiş kreditlər | 146,721.12 | 108,134.24 |
| 1.2 | Banklar və digər maliyyə institutlarına verilən kreditlər üzrə faiz gəlirləri | 641.03 | 307.63 |
| 1.3 | Banklar və digər maliyyə institutlarındakı depozitlər üzrə faiz gəlirləri | 29,520.11 | 49,805.08 |
| 1.4 | Ticarət və investisiya qiymətli kağızları üzrə faiz gəlirləri | 30,128.43 | 31,315.88 |
| 1.5 | Digər faiz gəlirləri | 2,514.46 | 2,585.57 |
| | Faiz borcları üzrə yaradılmış məqsədli ehtiyatlar | 2,363.98 | 2,663.89 |
| **2** | **Faiz xərcləri:** | **43,400.33** | **33,489.45** |
| 2.1 | Depozitlər üzrə faizlər | 32,288.72 | 25,988.07 |
| 2.2 | Mərkəzi bank və dövlət fondları qarşısında öhdəliklər üzrə faiz xərcləri | 6,992.94 | 2,871.15 |
| 2.3 | Cəlb edilmiş kreditlərə görə ödənilən faizlər | 0.00 | 0.00 |
| 2.4 | Pul bazarı alətlərinə ödənilən faizlər | 0.00 | 0.00 |
| 2.5 | Qiymətli kağızlar üzrə faizlər | 4,118.67 | 4,628.83 |
| 2.6 | Digər faiz xərcləri | 0.00 | 1.40 |
| **3** | **Xalis faiz gəliri(zərəri)** | **163,760.84** | **155,995.06** |
| **4** | **Qeyri-faiz gəlirləri:** | **67,635.56** | **38297.43** |
| 4.1 | Alınan haqq və kommisiya gəliri | 55,222.13 | 21364.25 |
| 4.2 | Xarici valyutadan gəlir/zərər (məzənnə dəyişməsi daxil olmaqla | 12,383.56 | 14609.07 |
| 4.3 | Qiymətli kağızların satışından və yenidən qiymətləndirilməsindən gəlir/zərər | -437.05 | -840.54 |
| 4.4 | Digər gəlirlər | 466.92 | 3164.65 |
| **5** | **Qeyri-faiz xərcləri:** | **96,595.17** | **70278.35** |
| 5.1 | Əmək haqqı və digər kompensiya növləri üzrə xərclər | 38,105.49 | 31763.9 |
| 5.2 | Ümumi və inzibati xərclər | 6,720.93 | 5441.12 |
| 5.3 | Amortizasiya xərcləri | 6,932.21 | 7780.74 |
| 5.4 | Digər xərclər | 44,836.54 | 25292.59 |
| **6** | **(Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlar)** | 31,799.29 | 18,011.31 |

| | | | |
|---|---|---|---|
| **7** | **Mənfəət vergisindən əvvəlki mənfəət(zərər)** | **103,001.94** | **106,002.83** |
| **8** | **Mənfəət vergisi** | 22,394.12 | 25,600.00 |
| **9** | **Dövr üzrə xalis mənfəət** | **80,607.82** | **80,402.83** |

| **Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 31.03.2024** | | | |
|---|---|---|---|
| | | | **min manatla** |
| | | **Cari hesabat dövrü** | **Əvvəlki hesabat dövrü** |
| **1** | **Əməliyyat fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| 1.1 | Alınmış faizlər | 254,430.77 | 173,834.01 |
| 1.2 | Ödənilmiş faizlər | -50,033.84 | -36,719.53 |
| 1.3 | Alınmış haqq və kommisiyalar | 57,090.81 | 54,949.61 |
| 1.4 | Ödənilmiş haqq və kommisiyalar | -31,510.77 | -41,345.88 |
| 1.5 | Xarici valyuta əməliyyatlarından xalis gəlir | 13,966.81 | 19,996.69 |
| 1.6 | Xarici valyutada törəmə maliyyə alətlərindən realizasiya olunmuş xalis gəlir | 0.00 | 0.00 |
| 1.7 | Ödənilmiş əmək haqqı və digər kompensasiyalar | -48,873.36 | -72,493.88 |
| 1.8 | Ödənilmiş ümumi və inzibati xərclər | -20,656.04 | -29,590.09 |
| 1.9 | Ümidsiz borclardan daxilolmalar | 161.00 | -4,484.38 |
| 1.1 | Alınmış digər əməliyyat gəlirləri | 337.06 | 792.19 |
| 1.11 | Ödənilmiş digər əməliyyat xərcləri | 0.00 | 0.00 |
| **2** | **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **174,912.44** | **64,938.73** |
| 2.1 | Əməliyyat aktivlərindən xalis artım/azalma | -180,660.60 | -522,480.14 |
| 2.1.1 | Banklara verilmiş kreditlərdə və depozitlərdə xalis artım (azalma) | 52,228.53 | 94,419.56 |
| 2.1.2 | Müştərilərə verilmiş kreditlərdə xalis artım (azalma) | -292,827.10 | -559,787.17 |
| 2.1.3 | Digər aktivlərdə xalis artım (azalma) | 59,937.97 | -57,112.53 |
| 2.2 | Əməliyyat öhdəliklərindən xalis artım/azalma | -488,499.81 | 2,207,410.45 |
| 2.2.1 | Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan depozitlər üzrə xalis artım (azalma) | -113,395.22 | 252,631.20 |

| | | | |
|---|---|---|---|
| 2.2.2 | Mərkəzi Bank üzrə öhdəliklırdə xalis artım (azalma) | 0.00 | 0.00 |
| 2.2.3 | Müştərilərin depozitləri və cari hesablarında xalis artım (azalma) | -374,926.24 | 1,848,894.41 |
| 2.2.4 | Digər öhdəliklərdəxalis artım (azalma) | -178.35 | 105,884.84 |
| 3 | **Mənfəət vergisindən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | -494,247.97 | 1,749,869.04 |
| 3.1 | Ödənilmiş mənfəət vergisi | -31,768.12 | -23,617.34 |
| **4** | **Əməliyyat fəaliyyəti ilə əlaqədar generasiya/istifadə edilən xalis pul vəsaitləri** | -526,016.08 | 1,726,251.69 |
| **5** | **İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| 5.1 | Əmlak və avadanlıqların alınması və avans ödənişləri | -5,159.34 | -11,523.27 |
| 5.2 | Əmlak və avadanlıqların satılmasından daxilolmalar | 0.00 | 0.00 |
| 5.3 | Qeyri-maddi aktivlərin alınması | 1,357.43 | -942.58 |
| 5.4 | Qeyri-maddi aktivlərin satılmasından daxilolmalar | 0.00 | 0.00 |
| 5.5 | Alınmış dividendlər | 0.00 | 0.00 |
| 5.6 | Satış üçün nəzərdə tutulan investisiya qiymətli kağızlarının satılması və geri alınması | -4,305.00 | 28,579.99 |
| 5.7 | Digər | -19.14 | 21,969.41 |
| **6** | **İnvestisiya fəaliyyəti ilə əlaqədar generasiya/istifadə olunan pul vəsaitlərinin hərəkəti** | -8,126.06 | 38,083.54 |
| **7** | **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | | |
| 7.1 | Digər borc öhdəliklərinin əldə olunması | 8,169.08 | 35,468.06 |
| 7.2 | Digər borc öhdəliklərinin ödənilməsi | 0.00 | 0.00 |
| 7.3 | Subordinasiya borclarının əldə olunması | 0.00 | 0.00 |
| 7.4 | Subordinasiya borclarının ödənilməsi | 0.00 | 0.00 |
| 7.5 | Səhmdar kapitalının buraxılmasından daxilolmalar | 0.00 | 0.00 |
| 7.6 | Digər maliyyə öhdəliklərinin cəlb edilməsi (ödənilməsi) | 38,939.09 | -188,499.77 |
| **8** | **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar yaradılan/istifadə olunan pul vəsaitləri** | 47,108.17 | -153,031.71 |

| | | | | |
|---|---|---|---|---|
| 9 | **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 4,070,893.39 | 2,459,583.19 | |
| 10 | **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma/(azalma)** | -487,033.97 | 1,611,303.53 | |
| 11 | **Məzənnə dəyişikliyinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri** | -1,584.79 | 6.68 | |
| 12 | **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 3,582,274.63 | 4,070,893.39 | |

| Kapital strukturunda dəyişikliklər haqqında hesabat 31.03.2024 | | |
|---|---|---|
| | | **min manatla** |
| **1** | **1. I dərəcəli kapital (Əsas kapital) (Məcmu kapitalın 50 faizdən az olmamalıdır)** | **1,602,501.42** |
| **1.1** | adi səhmlər (tam ödənilmiş paylar) | 1,225,647.82 |
| **1.2** | qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər | 0.00 |
| **1.3** | səhmlərin emissiyasından əmələ gələn əlavə vəsait | 0.00 |
| **1.4** | bölüşdürülməmiş xalis mənfəət (zərər), cəmi | 376,853.60 |
| **1.4.1** | əvvəlki illərin mənfəəti (zərəri) | 376,853.60 |
| **1.4.2** | (çıx) cari ilin zərəri | 0.00 |
| **1.4.3** | kapital ehtiyatları (fondları) | 0.00 |
| **1.5** | digər | 0.00 |
| **2** | **I dərəcəli kapitaldan tutulmalar** | **12,517.83** |
| **3** | **Tutulmalardan sonra I dərəcəli kapitalı (1 - 2)** | **1,589,983.59** |
| **4** | **II dərəcəli kapital** | **170,354.70** |
| **5** | **Məcmu kapital (3+4)** | **1,760,338.29** |
| **6** | **Məcmu kapitaldan tutulmalar :** | **105,613.73** |
| **7** | **Tutulmalardan sonra məcmu kapital (5-6)** | **1,654,724.56** |
| **8** | **Risk dərəcəsi üzrə ölçülmüş yekun aktivlər** | **7,776,755.97** |
| *faizlə* | | |
| **9** | **I dərəcəli kapitalın adekvatlıq əmsalı (3:8) x 100** | **20.45** |
| **10** | **Məcmu kapitalın adekvatlıq əmsalı (7:8) x 100** | **21.28** |

Link: https://abb-bank.az/az/hesabatlar

23.7. **Emitent son audit edilmiş maliyyə hesabatlarının təsdiq edilmə tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onları emissiya prospektinə daxil etməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir.**

**Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə prospektə bu qeyd edilməlidir: Link: https://abb-bank.az/az/hesabatlar**

Göstərilən linkdə rüblük audit olunmamış maliyyə hesabatları təqdim olunmuşdur.

23.8. **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman aralıq audit edilmiş və ya edilməmiş ən azı yarımillik maliyyə hesabatı emissiya prospektinə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ili ilə eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Belə bir hal mövcud deyildir.

23.9. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat:**

| | **31.12.2021** | | |
|---|---|---|---|
| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
| Adi səhmlər | 4,597,360,178 | 0.02762 | 126,979,088.12 |

| | **31.12.2022** | | |
|---|---|---|---|
| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
| Adi səhmlər | 4,539,436,367 | 0.02754 | 125,016,077.55 |

| | **31.12.2023** | | |
|---|---|---|---|
| | Səhmlərin sayı | hər səhmə düşən dividend(manatla) | ödənilmiş dividendlər(manatla) |
| Adi səhmlər | 4,539,436,367 | 0.03450 | 156,610,554.66 |

23.10. **Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Bu növ hüquqi proseslər mövcud deyil.

23.11. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Mövcud deyil.

## 24. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR

24.1. **Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Bankın nizamnamə kapitalı 1,225,647,819.09 (bir milyard iki yüz iyirmi beş milyon altı yüz qırx yeddi min səkkiz yüz on doqquz manat, doqquz qəpik) manat miqdarında müəyyənlənləşdirilir və hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 4,539,436,367 (dörd milyard beş yüz otuz doqquz milyon dörd yüz otuz altı min üç yüz altmış yeddi) ədəd adi, adlı sənədsiz səhmdən ibarətdir. Səhmlərlə təsbit olunmuş hüquqlar hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 3.3-cü bəndində açıqlanır.

24.2. **Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:** Emitentin emissiya hesabında səhm mövcud deyil.

24.3. **Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:** Bu məlumatlar hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 3.2-ci bəndində açıqlanır.

24.4. **Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat:** Mövcud deyil.

24.5. **Emitentin səhmlərinə olan opsionlar barədə məlumat:** Emitentin səhmlərinə opsion tətbiq edilmir.

24.6. **Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat:** 31 dekabr 2023, 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə bütün adi səhmlərin nominal dəyəri bir səhm üzrə 0.27 (iyirmi yeddi qəpik) manat təşkil etmişdir və onların hamısı eyni dərəcəlidir. 31 dekabr 2022-ci il tarixində başa çatan il ərzində Səhmdarların Ümumi Yığıncağının qərarı ilə 57,922 min səhm ləğv edilərək ümumi say 4,539,436,367 ədədə qədər azalmışdır. 31 dekabr 2023-cü il tarixinə səhmlərin sayında dəyişiklik olmamışdır.

24.7. **Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**24.7.1. fəaliyyət və məqsədlərin təsviri:**

Emitent çoxsahəli kredit və maliyyə xidmətlərini göstərmək və Azərbaycan Respublikasının Bank sisteminin tərkib hissəsini təşkil etmək məqsədilə təsis edilmişdir. Yuxarıda qeyd edilənlərin həyata keçirilməsi üçün, Nizamnaməyə və Azərbaycan Respublikasının Qanunvericiliyinə (o cümlədən, maliyyə bazarlarına nəzarət orqanının müvafiq Emitent qaydalarına) uyğun olaraq Emitentin məqsədləri aşağıdakılardır:

- Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;
- Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
- sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
- öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
- Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

Bank lisenziya ilə müəyyən edilən hüdudlarda Azərbaycan Respublikası Banklar haqqında Qanununun 32-ci maddəsində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək hüququna malikdir.

Nizamnamədə nəzərdə tutulan hər hansı fəaliyyət növü üçün qanunvericiliyə əsasən əlavə olaraq xüsusi razılıq (lisenziya) tələb edildikdə, həmin fəaliyyət növləri Emitent tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq xüsusi razılıq (lisenziya) alınmasından sonra həyata keçirilir.

**24.7.2. idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:**

**Səhmdarların Ümumi Yığıncağı** - Emitentin ali idarəetmə orqanıdır. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
- Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə Bankın ümumi maliyyə, uçot, inzibati, kadr və digər sahələri üzrə siyasətini müəyyənləşdirmək;
- Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- Digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək;
- növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
- Bankın büdcəsini qəbul və təsdiq etmək;

- Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;
- Bankın Müşahidə Şurasının təqdimatı əsasında İdarə Heyətinin sədrini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Bankın Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, Müşahidə Şurasının əsasnaməsini təsdiq etmək; Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini vəzifəyə təyin və azad etmək;
- qanunvericiliyin tələbləri nəzərə alınmaqla, Bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;
- Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, Bankın inzibatçılarının Bank adından və Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
- qanunvericiliyə müvafiq olaraq, Bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
- Bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
- nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, Bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə Bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını, habelə mənfəətin (o cümlədən xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividentlərin ödənilməsi şəklində) və zərərin bölüşdürülməsini təsdiq etmək;
- Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
- Banka aidiyyəti olan şəxslərlə dəyəri Bankın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdlərin bağlanması haqqında qərarlar qəbul etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

Nizamnaməyə əsasən səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş bir sıra məsələlər həll edilmək üçün Bankın Müşahidə Şurasına verilə bilər.

**Müşahidə Şurası** - öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Emitentin fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurasının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:
Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək;

- Bankın İdarə Heyətindən hesabat almaq, onun fəaliyyəti üzərində nəzarəti həyata keçirmək, o cümlədən İdarə Heyəti qarşısında qoyulmuş vəzifələrin icra vəziyyətini müntəzəm olaraq yoxlamaq, bununla bağlı onlardan hesabatlar, arayışlar və izahatlar tələb etmək, habelə İdarə Heyətinin fəaliyyətini qiymətləndirmək və bununla əlaqədar müvafiq meyarlar təsdiq etmək;
- Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul etmək;
- Bankın nizamnamə kapitalının 50 (əlli) faizindən artıq məbləğdə əqdlərin bağlanmasına icazə vermək;

- aidiyyəti şəxslərlə dəyəri Bankın aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdlərin bağlanması haqqında qərar qəbul etmək;
- Banka aidiyyəti olan şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Bankın aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdlərin ilkin təhlilini aparmaq və Səhmdarların Ümumi Yığıncağına müvafiq təkliflər vermək;
- Bankla İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda Bankı idarə və təmsil etmək;
- Bankın Audit Komitəsinin, eləcə də risklərin idarə edilməsi və mükafatlandırma fəaliyyətlərinə məsul müvafiq komitələrin sədrlərini və üzvlərini təyin və azad etmək, həmin komitələrin əsasnamələrini təsdiq etmək;
- Bankın risklərin idarə edilməsi bölməsinin rəhbərinin, korporativ katibin işə qəbuletmə və işdən azadetmə məsələləri barədə qərarlar qəbul etmək;
- Bankın Audit Komitəsinin təqdimatı ilə Bankın daxili audit bölməsinin rəhbəri və əməkdaşlarını vəzifəyə təyin və azad etmək;
- Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;
- Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- qanunvericiliyə müvafiq olaraq, Bankın İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq və Səhmdarların Ümumi Yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq qanunvericiliklə müəyyən olunan tələblərə cavab verən başqa şəxslərlə əvəz etmək;
- Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları, strateji planları və daxili əsasnamələri qəbul etmək;
- cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, habelə terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;
- Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;
- Səhmdarların Ümumi Yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;
- Bankda idarəetmənin effektivliyini artırmaq və risklərə nəzarəti gücləndirmək məqsədilə Müşahidə Şurası tərəfindən İdarə Heyətindən asılı olmayan və müstəqil qərarlar qəbul edən daxili komitələri yaratmaq, daxili komitələrin sədrlərini və üzvlərini təyin və azad etmək, o cümlədən yaradılan daxili komitələrin əsasnamələrini təsdiq etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə, Müşahidə Şurası haqqında Əsasnamə ilə səlahiyyətinə aid edilmiş, habelə Səhmdarların Ümumi Yığıncağı tərəfindən ötürülmüş səlahiyyətləri həyata keçirmək.

**İdarə Heyəti** Emitentin məsul icra orqanıdır. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının qərarlarına və Emitentin Nizamnaməsinin müddəalarına əsasən Emitentin

fəaliyyətinə gündəlik rəhbərliyi həyata keçirir. İdarə Heyətinin müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Bankın büdcəsinin layihəsini Müşahidə Şurasının təsdiqinə təqdim edir, o cümlədən Bankın büdcəsinin icrasını təmin edir;
- Bankın strateji baxışı ilə missiya hesabatının layihələrini hazırlayır və Müşahidə Şurasına təqdim edir;
- strateji baxış və missiya bəyanatı əsasında Bankın strateji planını hazırlayır və Müşahidə Şurasına təqdim edir, strateji planının icrasını təmin edir, ən azı yarım ildə 1 (bir) dəfə strateji planının icrasını təhlil edir və nəticələri barədə Müşahidə Şurasına hesabat verir;
- maliyyə planlaşdırılması sistemini yaradır və illik büdcənin icra vəziyyətini təhlil edir;
- Çıxarılmışdır;
- Bankın maliyyə vəziyyəti haqqında hesabatların, o cümlədən gəlirlər və xərclər haqqında məlumatların, Bankın üzləşdiyi risklər və fəaliyyətinə təsir göstərə biləcək amillər haqqında məlumatların hazırlanmasını təşkil edir və Müşahidə Şurasına təqdim edir;
- Bankın İdarə Heyəti haqqında Əsasnaməsi ilə müəyyən olunan məbləğ limitləri çərçivəsində inzibati xərclərin çəkilməsi və ödənişlərin aparılması üzrə müqavilələrin bağlanılmasına dair qərar qəbul edir;
- Bankın İdarə Heyəti haqqında Əsasnaməsi ilə müəyyən olunan məbləğ limitləri çərçivəsində Bankın gəlirdən çıxılmayan xərcləri hesabına vəsaitlərin birdəfəlik xərclənməsinə dair qərar qəbul edir;
- Bankın kredit siyasətini həyata keçirir;
- aldığı krediti ödəyə bilməyən borcalanların girov (ipoteka) qoyduğu əmlaka mülkiyyət hüququnun Bank tərəfindən əldə edilməsi və kreditlərin bu kimi üsullarla qaytarılmasından irəli gələn məsələləri həll edir;
- Bank xidmətlərinin təkmilləşdirilməsini və yeni xidmət növlərinin, o cümlədən bank məhsullarının şərtlərinin təsdiq edilməsini və istifadəyə verilməsini həyata keçirir;
- fiziki və hüquqi şəxs müştərilərə bank xidmətlərinin göstərilməsi üzrə tarifləri təsdiq edir;
- Bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemində üzərinə düşən vəzifələrini həyata keçirir;
- Bankın hər bir fəaliyyət növü üzrə işin təşkili, hesabatlıq və nəzarət mexanizmlərini əhatə edən daxili qaydalarını tərtib edir və Müşahidə Şurasına təqdim edir, habelə bu sənədlərin icrasını təmin edir;
- Bankın cari fəaliyyətini, o cümlədən struktur bölmələrinin qarşılıqlı fəaliyyətini tənzimləyən metodiki göstərişləri, reqlamentləri və digər daxili sənədləri təsdiq edir;
- Bankın iş təcrübəsinə ən mütərəqqi bank texnologiyalarının tətbiqini təşkil edir, müasir bank infrastrukturunun yaradılmasını təmin edir;
- Bankın struktur bölmələrinin, o cümlədən filial, şöbə və nümayəndəliklərinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə işi təşkil edir və həyata keçirir, onlar tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarət edir;

- Bankın struktur bölmələrinin rəhbərlərinin, o cümlədən filial, şöbə və nümayəndəliklərinin rəhbərlərinin müvafiq dövr üzrə fəaliyyət nəticələrinə və bank fəaliyyətinin konkret istiqamətləri üzrə işlərin nəticələrinə dair hesabatlarını müzakirə edir;
- Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə, İdarə Heyəti haqqında Əsasnamə və Bankın daxili normativ sənədləri ilə Bankın cari fəaliyyətinin həyata keçirilməsi üçün Səhmdarların Ümumi Yığıncağının və ya Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə aid edilməyən bütün digər məsələləri həll edir.

**Audit Komitəsi** - aşağıdakı səlahiyyətlərə malikdir:

- Bankın audit siyasətini və strategiyasını müəyyən etmək və həyata keçirmək;
- daxili audit planlarını təsdiq etmək, ona dəyişikliklər etmək, plandankənar yoxlama və monitorinqlər təyin etmək, daxili audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;
- kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər və tövsiyələr vermək;
- kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım etmək;
- Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;
- daxili nəzarət sistemlərin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;
- daxili audit bölməsinin əsasnaməsi və onun saxlanılması xərcləri haqqında Müşahidə Şurasına təkliflər vermək;
- daxili auditorların əmək haqqı məbləğləri, vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması barədə Müşahidə Şurasına təkliflər vermək;
- daxili audit yoxlamalarının nəticələrini, təklif və tövsiyələrini Müşahidə Şurası ilə birgə müzakirə etmək;
- kənar auditorla birgə işin təşkili ilə Banka aidiyyəti olan Bankın fəaliyyətinə dair bütün əhəmiyyətli məlumatların, Bank sənədlərinin kənar auditora vaxtında və tam təqdim edilməsini təmin etmək;
- kənar auditor, İdarə Heyəti və Bankın Banka aidiyyəti olan struktur bölmələri ilə birlikdə kənar auditorun hesabatını təhlil və müzakirə etmək çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə təkliflər vermək;
- kənar auditlə bağlı mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə maliyyə bazarlarına nəzarət orqanının, Bankın idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsini təşkil etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə, Audit Komitəsi haqqında Əsasnamə ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

**24.7.3. Mövcud səhmlərin hər bir növü məhdudiyyətlərin təsviri** – Emitentin mövcud səhmlərinin yalnız bir növü (adi sənədsiz adlı səhmlər) olduğundan həmin növ səhmlər üzrə məhdudiyyətlər mövcud deyildir.

**24.7.4. Səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası.**

Səhmdarların növbəti və növbədənkənar Ümumi Yığıncaqları keçirilə bilər. Səhmdarların hər bir növbəti Ümumi Yığıncağının iclasının bildirişlər göndərilmək yolu ilə çağırılması və gündəliyinin qəbul edilməsi Bankın Müşahidə Şurası tərəfindən həyata keçirilir. Səhmdarların növbədənkənar Ümumi Yığıncaqları səsvermə hüququ olan səhmlərin azı 5 (beş) faizinin sahibləri olan səhmdarların, Bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının iclasının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər iclasın gündəliyinə mütləq salınmalıdır.

Bankın səhmdarı Ümumi Yığıncağın iclasının gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd (səsvermə bülleteni) vasitəsi ilə səsvermədə qiyabi iştirak edə bilər. Bu zaman Bank tərəfindən səhmdara bildirişlə yanaşı iclasın gündəliyinə daxil edilmiş məsələlər üzrə səsvermə bülleteni göndərilir. Bankın səhmdarı ona göndərilmiş bülleten formasını bu bənddə qeyd edilmiş qaydada dolduraraq qapalı zərfdə bildirişdə qeyd edilən müddətdə və ünvana göndərməlidir. Bildirişdə göstərilmiş tarixdə, vaxtda və ünvanda Ümumi Yığıncağın iclasında zərflərin açılması həyata keçirilir. Bankın səhmdarının Ümumi Yığıncağın iclasında qiyabi iştirak etməsi ilə bağlı digər təşkilati məsələlər Bankın daxili normativ sənədləri ilə müəyyən edilir.

Səhmdarların Ümumi Yığıncağının iclasında iştirak edən səhmdarların sadə səs çoxluğu ilə Ümumi Yığıncağın iclasına sədrlik edən şəxs təyin edilir. Səhmdarların Ümumi Yığıncağının iclasına sədrlik edən şəxs Bankın rəhbərliyində təmsil olunmayan şəxslər sırasından Ümumi Yığıncağın katibini seçir. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada, Səhmdarların Ümumi Yığıncağında səsvermənin nəticələrini müəyyən edən hesablama komissiyası yaradılır və üzvləri təyin edilir. Səsvermənin nəticələri Komissiyanın iclas protokolları ilə rəsmiləşdirilir və müvafiq protokol Səhmdarların Ümumi Yığıncağının protokoluna əlavə olunur.

Səhmdarların Ümumi Yığıncağının iclasları telekommunikasiya vasitələrinin (video görüntü və ya telefon bağlantısı) köməyi ilə distant formada da həyata keçirilə bilər. İclasın distant formada keçirilməsi barədə məlumat səhmdarlara göndərilən bildirişdə və kütləvi informasiya vasitələrində dərc olunan məlumatda qeyd edilir.

Səhmdarların Ümumi Yığıncağın iclaslarının çağırılması, keçirilməsi və qərarların qəbul edilməsi ilə bağlı təşkilati məsələlər Bankın Səhmdarlarının Ümumi Yığıncağı haqqında Əsasnaməsi ilə müəyyən olunur.

24.8. **Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:**Emitentin əsas faəliyyəti ilə bağlı olmayan sığorta agenti ilə bağlı, balansda olan və ya balansdan silinmiş əmlakların satış ilə bağlı, əməkdaşların peşəkar inkişafı və əyləncəsi ilə bağlı, maddi yardım və ianə müqavilələri, abunəlik (jurnal, qəzet vəs.) müqavilələri, hədiyyələrin alışı ilə bağlı müqavilələri mövcuddur.

## II HİSSƏ

## SƏHMLƏR BARƏDƏ MƏLUMAT

## 25. ƏSAS MƏLUMAT

25.1. **Emitentin dövriyyə kapitalı (carı aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:** Dövriyyə kapitalı 31.12.2023 tarixinə - 1,918,003,000 manat təşkil edir.

25.2. **Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat:** Hal-hazırda emitentin dövriyyə kapitalı cari ehtiyaclar üçün kifayət edir. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tututlan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər. Emitentin Nizamnamə və “Banklar haqqında” Qanunun 32-ci maddəsində nəzərdə tutulmuş fəaliyyətləri nəticəsində əldə olunan bütün gəlirlər emitentin maliyyələşmə strukturunu təşkil edir.

25.3. **Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat:**

| AZN, min | 31.01.2024 | 29.02.2024 | 31.03.2024 |
|---|---|---|---|
| AR Mərkəzi Bankı (təminatsız və təminatlı) | 0 | 0 | 0 |
| Rezident maliyyə institutları (təminatlı və təminatsız) | 451,200,068 | 458,200,070 | 525,049,874 |
| Digər | 0 | 0 | 0 |
| **Cəmi** | 451,200,068 | 458,200,070 | 525,049,874 |

25.4. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 5.4-cü bəndində açıqlanır.

25.5. **Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** İnvestisiya qiymətli kağızların bir növü olaraq hər birinin nominal dəyəri 0.27 (iyirmi yeddi qəpik) manat olan 322 000 000 (üç yüz iyirmi iki milyon) ədəd adi adlı sənədsiz əlavə səhmlərin təklifi onların kütləvi təklif üsulu ilə (abunə yazılışı keçirilməklə) yerləşdirilməsi yolu ilə investorlardan sərbəst vəsaitlərin Emitentin

Nizamnamə kapitalına cəlb edilməsi məqsədilə həyata keçirilir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə, səhmdar bazasının genişləndirilməsi və inkluzivliyin artırılmasına imkan yaradacaq.

25.6. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri:** Mövcud deyil.

25.7. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Nəzərdə tutulmayıb.

## 26. TƏKLİF EDİLƏN SƏHMLƏR HAQQINDA MƏLUMAT

26.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

26.2. **Səhmlərin növü:** Adi, adlı, sənədsiz, səs hüquq verən səhm.

26.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə):**

| | Səhmlərin sayı | Nominal dəyəri (AZN) |
|---|---|---|
| Yeni buraxılan | 322 000 000 | 86 940 000 AZN |
| Mövcud olan | 4,539,436,367 | 1,225,647,819.09 AZN |

26.4. **Səhmlərlərin qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün):** AZ1004004581

26.5. **Səhmlərlə təsbit olunan hüquqlar:** Hazırkı Emissiya Prospektinin “Xülasə” hissəsinin 3.3-cü bəndində açıqlanır

- Bankın idarə edilməsində Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Bankın fəaliyyətinə dair məlumatlar almaq, ildə 1 (bir) dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş qaydada Bankın Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;
- Bankın Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallar istisna olmaqla, Bankın Səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək;
- Bankın xalis mənfəətindən dividend almaq;
- Bankın fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendləri, habelə Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- Bankın səhmlərinin satışı prosesində iştirak etmək;
- Bankın Nizamnaməsi, ona edilən əlavə və dəyişikliklərlə tanış olmaq, Bankın Nizamnaməsinin surətini almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.
-

26.6. **Səhmlərlə təsbit olunan məhdudiyyətlər:** Mövcud deyil.

26.7. **Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Milli Depozit Mərkəzi Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Ünvan: Həsən bəy Zərdabi prospekti 2A, Bakı, AZ1141, Şokolad Tower. Telefon: +994(12) 538 3190. E-mail: info@mdm.gov.az

26.8. **Dividend siyasəti:** Emitentin mənfəətinin bölüşdürülməsi nəticəsində dividendlərin ödənilməsi həyata keçirilir. Dividend ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən və Azərbaycan Respublikası Mərkəzi Bankını məlumatlandırmaqla ödənilir.

26.9. **Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd:** Bankın səhmdarları səhmlərin əldə edilməsində Nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər və öz üstünlük hüquqlarından, səhmlər Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 iş günü ərzində istifadə edə biləcəklər.

26.10. **Səhmlərin geri satın alınma şərtləri (olduqda):** Nəzərdə tutulmayıb.

26.11. **Səhmlərin konvertasiyası şərtləri (olduqda):** Yoxdur.

26.12. **Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Səhmdarların ümumi yığıncağının 27.05.2024-cü il tarixli, 1 saylı Protokolu.

26.13. **Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Səhmlərə abunə yazılışının məbləği üstünlük hüququ ilə alınan səhmlər istisna olmaqla hər bir investor üzrə maksimum 75 000 (yetmiş beş min) ədəd, minimum isə 100 (yüz) ədəd səhm miqdarında müəyyən edilir. Qeyd olunan məhdudiyyətlər nəzərə alınmaqla bir investor tərəfindən bir neçə sifariş təqdim edilə bilər.

26.14. **Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat:** Məcburi təklif mövcud olmamışdır.

26.15. **Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunvericiliklə müəyyən edilmiş halda və qaydada Emitent tərəfindən dividenddən ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər üzrə fiziki şəxslərə ödənilən dividend gəlir vergisindən azaddır.

## 27. TƏKLİFİN ŞƏRTLƏRİ

27.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Səhmlərə abunə yazılışı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən səhmlərin buraxılışı dövlət qeydiyyatına sonra abunə yazılışının başlama və bitmə tarixləri elanda göstərilir və abunə yazılışının müddəti 3 aydan yuxarı olmamaqla müəyyən edilir. Abunə yazılışı dövründə də səhmdarlar tərəfindən verilmiş sifarişlər üzrə onların üstünlük hüquqları Emitentin nizamnamə kapitalında malik olduqları paya mütənasib həcmdə təmin ediləcəkdir. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır.. Səhmlərin yerləşdirilməsinə elanda qeyd olunan tarixdə başlanılacaq və ən geci 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır. Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulla ilə Bakı Fond Birjası vasitəsilə həyata keçiriləcəkdir.

27.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektinə dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində Mərkəzi Banka təqdim ediləcək. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində Məlumatların Elektron Açıqlanması Sistemində (MEAS) https://www.cbar.az/meas, Bakı Fond Birjasının rəsmi internet səhifəsində https://www.bfb.az/az və emitentin internet səhifəsində https://abb-bank.az/ açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

27.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Təklif “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər..

27.4. **Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri:** Nəzərdə tutulmayıb.

27.5. **Səhmlərə abunə yazılışının qaydası:** Abunə yazılışı internetdə sayt vasitəsilə, ABB Mobilə tətbiqi, elektron və ya yazılı şəkildə bildirişlərin təqdim edilməsi yolu ilə keçiriləcəkdir.

27.6. **Abunə yazılışının minimum və maksimum məbləği:** Abunə yazılışının maksimum məbləği 86,940,000 manat, minimum məbləğ isə nəzərdə tutulmayıb.

27.7. **Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası:** Abunə yazılışı dövründə verilmiş sifarişlər ləğv , düzəliş edilə və ya geri çağırıla bilməz. Yerləşdirmə dövründə sifarişlərin təmin edilməmiş hissəsi yerləşdirmə müddəti bitdikdən sonra ən geci bir ay müddətində investorların bank hesablarına geri qaytarılacaqdır.

27.8. **Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası:**

Səhmlərin buraxılışın və yerləşdirilməsinin şərtləri aşağıdakı kimidir:

- Hər bir mərhələdə səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir;
- Yerləşdirmə müddətində ilk növbədə üstünlük hüququna malik olan investorların üstünlük hüququ üzrə verilmiş sifarişləri təmin ediləcəkdir;
- Abunə yazılışı müddətində toplanmış sifarişlərin həcmi təklif olunan səhmlərin həcmindən çox olduqda, yerləşdirmə zamanı ilk növbədə daha yüksək qiymətlə verilmiş sifarişlər icra edilir;
- Səhmlərin yerləşdirilməsi zamanı investorlar tərəfindən eyni qiymət ilə təqdim edilən sifarişlərdə səhmlərə tələbat təklifdən çox olduğu təqdirdə səhmlər investorlar arasında onların sifarişlərində göstərilmiş səhmlərin miqdarına uyğun olaraq mütənasib miqdarda yerləşdirilir.

27.9. **Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri:** Emitentin mövcud səhmdarları səhmlərə mütənasib qaydada üstünlük hüququndan istifadə etdikdən sonra digər sifarişlərə baxılır. Səhmdarların üstünlük hüquqlarını həyata keçirməklə aldıqları səhmlər istisna olmaqla, hər bir investor üzrə səhmlərə abunə yazılışının məbləği cəmi 75 000 (yetmiş beş min) ədəd səhm miqdarında, hər bir investor üçün səhmlərə abunə yazılışı üzrə sifarişin minimal məbləği isə 100 (bir yüz) ədəd səhm miqdarında müəyyən edilir. Qeyd edilən şərtlərə uyğun olaraq, bir investor tərəfindən bir neçə sifariş verilə bilər.

27.10. **Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası:** Abunə yazılışı dövründə investorlar tərəfindən verilmiş sifarişlərin dəyəri pulla (Azərbaycan Manatı) ödənilməlidir. Dəyəri ödənilməyən sifarişlər qəbul edilmir. İcra edilmiş sifarişlər üzrə səhmlər Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin idarə etdiyi depozitar sistemində investorların adına açılmış depo hesablarına köçürülür və orada emissiyanın yekunları haqqında hesabat maliyyə bazarlarına nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı)

tərəfindən təsdiq edilənədək dondurulur. Müvafiq hesabat təsdiq edildikdən sonra, səhmlər dondurmadan azad edilir və tədavülə buraxılır.
Səhmlərin yerləşdirilməsi nəticəsində toplanmış pul vəsaitlərinin istifadəsinə yalnız maliyyə bazarlarına nəzarət orqanı (Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən emissiyanın və kütləvi təklifin yekunları haqqında hesabat təsdiq edildikdən sonra yol verilir.

27.11. **Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat:** Əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra hər bir səhmdara qanunvericilikdə nəzərdə tutulmuş müddətdə üstünlük hüququndan istifadə imkanı barədə bildiriş göndəriləcəkdir. Səhmdar bildirişi aldığı tarixdən on iş günü ərzində üstünlük hüququndan istifadə etməsi barədə yazılı tələbini Emitentə bildirə bilər. Bu səhmdarlar yeni emissiya edilən səhmləri almaqda öz üstünlük hüququndan istifadə etmək üçün abunə yazılışı müddəti ərzində ABB mobil tətbiqi vasitəsilə və ya ABB-nin filiallarına yaxınlaşaraq və ya anderrayterə müraciət edərək öz alış sifarişlərinin təqdim etməli və sifarişə uyğun olaraq müvafiq məbləği anderrayterin hesabına köçürməlidir. Anderrayter emitent tərəfindən təqdim olunmuş siyahı əsasında üstünlük hüququna sahib olan səhmdarlar tərəfindən təqdim edilən sifarişləri yerləşdirmə dövrünün ilk 2 (iki) iş günü ərzində Bakı Fond Birjası QSC-nin ticarət platformasına daxil etməlidir. Səhmdarların verdiyi sifarişlər üzrə üstünlük hüquqları yeni buraxılan səhmlərə nisbətdə “ABB” ASC-nin nizamnamə kapitalına olan mütənasib payı həcmində tam təmin ediləcəkdir. Mütənasib paydan artıq həcmdə verilmiş sifarişlər digər investorlar üçün nəzərdə tutulmuş qaydada qəbul ediləcək və yalnız qiymət üstünlüyünə malik olduqda icra ediləcəkdir. Eyni qiymətlə verilmiş bu cür sifarişlər səhmlərin sifarişlər arasında həcmə görə mütənasib şəkildə bölüşdürülməsi yolu ilə təmin ediləcəkdir.
Səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Səhmlərə abunə yazılışının sayı üstünlük hüququ ilə alınan səhmlər istisna olmaqla hər bir investor üzrə maksimum 75 000 (yetmiş beş min) ədəd, minimum isə 100 (yüz) ədəd səhm miqdarında müəyyən edilir. Qeyd olunan məhdudiyyətlər nəzərə alınmaqla bir investor tərəfindən bir neçə sifariş təqdim edilə bilər.
Yeni səhm təklifi nəticəsində 322,000,000 (üç yüz iyirmi iki milyon) ədəd səhmin tam yerləşdirilməsi baş tutduğu halda ehtimal olunan dəyişiklik aşağıdaki kimi olacaq:

| Səhmdarlar | Mövcud səhmlərin miqdarı və faiz nisbəti | | Üstünlük hüququ istifadə olunmadığı halda səhmlərin miqdarı və faiz nisbəti | |
|---|---|---|---|---|
| Fiziki şəxslər | 141,858,951 | 3.13% | 141,858,951 | 2.92% |

| | | | | |
|---|---|---|---|---|
| Hüquqi şəxslər | 23,055,641 | 0.50% | 23,055,641 | 0.47% |
| Dövlət | 4,374,521,775 | 96.37% | 4,374,521,775 | 89.99% |
| Yeni səhmdarlar | - | - | 322,000,000 | 6.62% |
| Cəmi | 4,539,436,367 | 100.00% | 4,861,436,367 | 100.00% |

27.12. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcüd deyil.

27.13. **Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Səhmlərə abunə yazılışı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən səhmlərin buraxılışı dövlət qeydiyyatına sonra abunə yazılışının başlama və bitmə tarixləri elanda göstərilir və abunə yazılışının müddəti 3 aydan yuxarı olmamaqla müəyyən edilir. Abunə yazılışının başlanması və başa çatma tarixləri buraxılışın anderrayteri ABB-İnvest İnvestisiya Şirkəti QSC və Emitent tərəfindən rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində açıqlanacaqdır və belə bir məlumat açıqlanmamış abunə yazılmaq üçün sifarişlərin qəbulu başlanıla bilməz. Abunə yazılışı müddəti bitdiyi tarixdən 5 (beş) iş günü ərzində səhmlərin Bakı Fond Birjası QSC-nin ticarət platformasında yerləşdirilməsi başlanacaqdır. Yerləşdirmənin başlanma və başa çatma tarixləri barədə məlumat ABB-İnvest İnvestisiya Şirkəti QSC tərəfindən öz veb saytında, kütləvi informasiya vasitələrində açıqlanacaq və belə bir məlumat açıqlanmamış səhmlərin yerləşdirilməsi başlanıla bilməz.

27.14. **Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat:** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcud deyil.

27.15. **İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat:** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirildiyi üçün bu barədə məlumat mövcud deyil.

27.16. **Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları:** İlk növbədə əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan emitentin

səhmdarlarının təqdim etdikləri sifarişlər təmin olunur. Emissiya edilən səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir. Bu sifarişlər səhmlərin yerləşdirilməsinə başlandığı tarixdən ilk 2 (iki) iş günü ərzində icra edilir.

27.17. **Səhmlərin təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə səhmlərin qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** Emissiya edilən səhmlərin təklif qiyməti 0.27 (iyirmi yeddi qəpik) manatdan başlayır və qeyd olunan qiymətdən aşağı qiymətlə verilmiş sifarişlər təmin edilmir.

27.18. **Satış qiymətinin açıqlanma qaydası:**
Satış qiyməti barədə məlumatlar Emissiya prospektində göstərilir. Emissiya prospekti Mərkəzi Bank tərəfindən təsdiq edildikdən sonra Mərkəzi Bankın vahid məlumat resursunda (www.cbar.az/meas), Fond birjasının (www.bfb.az) və anderrayterin (www.abbinvest.az) internet səhifəsində açıqlanır.

27.19. **Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**Səhm alıcısının ödəməli olduğu xərclər aşağıdakılardan ibarətdir:

**27.19.1.** Səhm alışı üçün anderraytera verilmiş sifarişin icrası üçün anderrayterin və Bakı Fond Birjası QSC-nin tətbiq etdiyi xidmət haqları. Bu xidmət haqqı sifarişin icra olunmuş həcmindən asılı olaraq anderrayter və Bakı Fond Birjası QSC tərəfindən müəyyən edilir. Anderrayterin tətbiq etdiyi xidmət haqqı investorla bağlanmış müqavilədə, Bakı Fond Birjası QSC-nin tətbiq etdiyi xidmət haqqı barədə məlumat isə onun internet səhifəsində (https://www.bfb.az/az/bfb-ticaret-tariffleri-ve-uzvluk-haqlari) dərc edilmişdir.
**27.19.2.** Səhm alıcısına xidmət edən investisiya şirkətinin bank hesabına səhm alışı üçün pul vəsaitlərinin köçürülməsi üzrə banka ödənilən xidmət haqqı. Bu xidmət haqqı müvafiq bank tərəfindən müəyyən edilir.
**27.19.3.** Yeni depo hesabının açılışı ilə bağlı Milli Depozit Mərkəzinin tətbiq etdiyi xidmət haqqı. Bu xidmət haqqı barədə məlumat onun internet səhifəsində (https://mdm.gov.az/uploads/files/2022/04/mdm-xidm%C9%99t-haqlari1.pdf) dərc edilmişdir.
**27.19.4.** Səhm alıcısının alış etdiyi vaxtda vergi ödəmək öhdəliyi yaranmır. Qanunvericiliklə müəyyən edilmiş halda və qaydada Emitent tərəfindən dividenddən ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində rezident hüquqi şəxslər

tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər üzrə fiziki şəxslərə ödənilən dividend gəlir vergisindən azaddır.
Yalnız fiziki şəxslərin anderrayter vasitəsilə səhm alışı zamanı ödəməli olduğu xərclər (Bakı Fond Birjasının komissiyası, Anderrayterin komissiyası, Milli Depozit Mərkəzidə hesab açılışı xərci) Emitent tərəfindən qarşılanacaq.

27.20. **Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı:**

Səhmlərin öhdəlik götürmədən yerləşdirilməsi üzrə "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti anderayter təyin edilmişdir.
Hüquqi ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67
Faktiki ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə)
Telefon: (994 12) 493 00 91 (3093)
E-mail: office@abbinvest.az,
VÖEN: 1405161661
Lisenziyası: Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 18.09.2020-ci il tarixində verilmiş İŞ-05 nömrəli "investisiya şirkəti fəaliyyəti"nə dair Lisenziya.
Anderrayter xidmətləri üçün tutulacaq komissiya 0.5% təşkil edir. Komissiya hər əqdin məbləğindən emitent tərəfindən ödənilir

## 28. TİCARƏTƏ BURAXILMA VƏ ONUN TƏNZİMLƏNMƏSİ

28.1. **Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

"ABB" ASC-nin səhmləri Bakı Fond Birjası QSC-nin listinq şərtlərinə uyğun olaraq Premium Bazar Seqmentindədir. Bu emissiya prospekti ilə müəyyən edilən səhm buraxılışı müvafiq qaydada dövlət qeydiyyatına alındıqdan sonra, "ABB" ASC-nin səhmləri Fond Birjası QSC-də eyni seqmentdə qalacaq və ticarəti aparılacaqdır. Bu seqmentdə emitentlərdən qabaqcıl təşkilati, maliyyə, məlumatların açıqlanması və idarəetmə standartlarının tətbiq edilməsi, mənfəətlilik, səhmlər üzrə sərbəst bazarda tədavül həcminin təmin edilməsi tələb edilir. Emitentin nizamnamə kapitalının ümumi həcmi ən azı 2 500 000 manat olmalıdır. Premium bazar seqmentində Dövlət qiymətli kağızları, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların, o cümlədən, qabaqcıl təşkilati, maliyyə, məlumatların

açıqlanması və idarəetmə standartlarının tətbiq edildiyi yüksək əməliyyat və maliyyə göstəriciləri nümayiş etdirən Emitentlərin qiymətli kağızları ticarət olunur. Emitentin səhmlərinin premium bazarı seqmentində ticarət edilməsi üçün emitent Bakı Fond Birjası QSC-nin müvafiq daxili qaydalarının (https://www.bfb.az/az/view-file/baki-fond-birjasinda-qiymetli-kagizlarin-listinqe-dax.pdf) tələblərinə cavab verməlidir.

28.2. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Bakı Fond Birjası 27 avqust 1997-ci il Bakı Fond Birjası Səhmdar Cəmiyyətinin yaradılması tarixidir. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş “fond birjası fəaliyyəti”ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Birjanın yaradılması anından etibarən Bakı Fond Birjası Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Əlaqə nömrəsi: (+994 12) 498 98 20

Elektron poçt ünvanı: info@bse.az

Səhmlərin yerləşdirilməsi Bakı Fond Birjası QSC-nin ticarət platformasında həyata keçirilir və alğı-satqı əqdləri Bakı Fond Birjası vasitəsilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən yeni buraxılacaq səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. Bakı Fond Birjasında alğı-satqı əqdləri bu səhmlərin Bakı Fond Birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

Fond birjasının vəzifələri aşağıdakılardır:

- təşkil etdiyi ticarətin ədalətliliyinin və şəffaflığının təmin edilməsi;
- öz daxili qaydaları ilə üzvlərinin ticarətdə birbaşa və (və ya) məsafədən qoşulmaqla iştirakının təmin edilməsi;
- qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə ticarətin təşkili və keçirilməsi;
- ticarət sistemlərinin istismarı və dəstəklənməsi;
- qiymətli kağızların kütləvi təklifinin və yerləşdirilməsinin təşkili;
- fond birjasında ticarətə qəbul edilən törəmə maliyyə alətlərinə, qiymətli kağızlara və onların emitentlərinə tələblərin müəyyən edilməsi;
- öz üzvlərinə fond birjasında ticarət aparmaq üçün ticarət sistemlərinə çıxış verilməsi;

- ticarət sistemində bağlanmış əqdlərin monitorinqinin aparılması;
- öz üzvlərinin fond birjasında fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqinin aparılması;
- fond birjasının daxili qaydaları ilə nəzərdə tutulmuş digər vəzifələr.

Fond birjası aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

28.3. **Market meyker(lər) barədə məlumat (olduqda):** Bazar şəraitini nəzərə alaraq, emitent səhmlərin likvidliyinin qorunması məqsədi ilə marketmeyker təyin edə bilər. Bu barədə Bakı Fond Birjasının saytında məlumat açıqlanacaqdır.

28.4. **Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması:** Nəzərdə tutulmamışdır.

## 29. TƏKLİF EDİLƏN SƏHMLƏRİN MÜLKİYYƏTÇİLƏRİ HAQQINDA MƏLUMAT: Belə məlumat mövcud deyil.

## 30. EMİSSİYA XƏRCİ

30.1. **Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği:**"ABB" ASC tərəfindən səhmlərin emissiyası və yerləşdirilməsi üzrə xərclər və cəlb olunacaq vəsaitlərin ehtimal olunan xalis məbləği barədə məlumat:

| Xərcin təyinatı | Məbləğ |
|---|---|
| Emissiya prospektinin dövlət qeydiyyatına alınması üçün rüsum: | 1 200 AZN |
| Anderrayterə ödəniləcək xidmət haqqı: | 0.5% (yerləşdiriləcək səhmlərin bazar dəyərindən ) |
| Səhmlərin Bakı Fond Birjası QSC-nin yerləşdirilməsi üçün satıcı tərəf (emitent) tərəfindən ödəniləcək xidmət haqqı: | 1 000 AZN |
| Emissiya edilən bütün səhmlərin ilkin satış (təklif) təklif qiyməti ilə yerləşdirilməsi şərti ilə cəlb ediləcək vəsaitin məbləği: | 86 940 000 AZN |
| Yeləşdirmə nəticəsində cəlb olunacaq vəsaitlərin ehtimal olunan xalis məbləği: | 86 503 100 AZN |

Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0,02%i, (minimum 50, maksimum 5000) hər bir xidmət üzrə ayrılıqda ödənilir. Buraxılışdan öncəki vəziyyətə əsasən qeyd olunan rüsumlar maksimal həddə çatdığından, yeni buraxılışda bu xidmətlərlə bağlı əlavə xərc yaranmayacaq.

## 31. PAYIN AZALMASI

31.1. **Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları:**

Yeni səhm təklifi nəticəsində 322,000,000 (üç yüz iyirmi iki milyon) ədəd səhmin tam yerləşdirilməsi baş tutduğu halda ehtimal olunan dəyişiklik aşağıdaki kimi olacaq:

| Səhmdarlar | Mövcud səhmlərin miqdarı və faiz nisbəti | | Üstünlük hüququ istifadə olunmadığı halda səhmlərin miqdarı və faiz nisbəti | |
|---|---|---|---|---|
| Fiziki şəxslər | 141,858,951 | 3.13% | 141,858,951 | 2.92% |
| Hüquqi şəxslər | 23,055,641 | 0.50% | 23,055,641 | 0.47% |
| Dövlət | 4,374,521,775 | 96.37% | 4,374,521,775 | 89.99% |
| Yeni səhmdarlar | - | - | 322,000,000 | 6.62% |
| Cəmi | 4,539,436,367 | 100.00% | 4,861,436,367 | 100.00% |

Səhmlər kütləvi təklif edilir. Mövcud səhmdarlar üstünlük hüquqlarından istifadə etməklə Emitentin nizamnamə kapitalında olan paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilərlər. Bankın mövcud səhmdarları üstünlük hüquqlarından istifadə etmədikdə abunə yazılışına yazılmış investorlar növbəlilik qaydasından səhmləri əldə edə bilərlər.